AZƏRBAYCAN
XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ

# DƏNİZ

QƏZET 1931-ci ildən nəşr olunur

26 may 2017-ci il | № 37-40 (9131) | www.seanews.az | Qiyməti 50 qəpik



## BAYRAMINIZ MÜBARƏK!

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi Gəmiçiliyin bütün işçilərini qarşıdan gələn**

## 28 MAY – RESPUBLİKA GÜNÜ

*münasibəti ilə səmimi-qəlbdən təbrik edir, hər birinə möhkəm cansağlığı, firavan həyat, səadət, gündən-günə çiçəklənən müstəqil Azərbaycanımızın daha da qüdrətlənməsi naminə fəaliyyətlərində yeni-yeni uğurlar arzulayır.*

*Bayramınız mübarək!*

## BU SAYIMIZDA


### DÜNYANIN NÜFUZLU TƏSNİFAT CƏMİYYƏTLƏRİNDƏN OLAN ABS NÜMAYƏNDƏLƏRİ GƏMİÇİLİKDƏ



*Mayın 18-də dünyanın ən nüfuzlu təsnifat cəmiyyətlərindən sayılan Amerika Gəmiçilik Bürosunun (ABS) nümayəndələri Dmitri Houliarakis, Elias Kariabas, Biş Bişavi ilə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyevin görüşü keçirilib.*

Səh. 3

### XƏZƏRİN STATUSU İLƏ BAĞLI KONVENSİYA QAZAXISTANDA DÖVLƏT BAŞÇILARININ GÖRÜŞÜNDƏ İMZALANA BİLƏR

*Xəzər dənizinin hüquqi statusu ilə bağlı Konvensiya Qazaxıstanda keçirilməsi nəzərdə tutulan Xəzəryanı ölkələrin dövlət başçılarının görüşündə imzalana bilər.*



Bu barədə Rusiya xarici işlər nazirinin müavini Qriqori Karasin "Kommersant" qəzetinə müsahibəsində deyib.

Səh. 4

### ŞƏRƏFLİ ÖMRÜN SAHİBİ



*Ömrə alnın təri, əllərin qabarı ilə rəng qatanda daha mənalı olur. Bu zaman geriyə baxmağa da dəyir. Təəssüf ki, belə nümunələr o qədər də çox deyil. Amma dənizçilik peşəsinə könül verənlər bu mənada həmişə bir pillə öndə dayanırlar.*

Səh. 7

### "DƏNİZÇİ GÜNÜ" MÜNASİBƏTİ İLƏ FOTO MÜSABİQƏ

*"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin rəsmi mətbuat orqanı olan "Dəniz" qəzeti 25 iyun – "Dənizçi günü" münasibəti ilə əməkdaşlar arasında foto müsabiqə elan edir.*




Səh. 8


# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN 100 İLLİK YUBİLEYİ DÖVLƏT SƏVİYYƏSİNDƏ GENİŞ QEYD EDİLƏCƏK

***Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında Sərəncam imzalayıb.***



Sərəncamda Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə nəzər salınır. Bildirilir ki, 2018-ci il may ayının 28-də müsəlman Şərqində ilk parlamentli respublikanın – Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi tamam olur.

Qədim və zəngin dövlətçilik ənənələrinə malik Azərbaycan xalqı keçmişinin müəyyən dövrlərində tarixin hökmü ilə böyük imperiyalar tərkibinə qatılmaq məcburiyyətində qalmışdır. Azərbaycan Xalq Cümhuriyyəti məhz dünyanın siyasi nizamının yenidən qurulduğu bir vaxtda, XIX əsrin axırları və XX əsrin əvvəllərində Azərbaycanın yaşadığı parlaq mədəni yüksəliş mərhələsinin məntiqi yekunu kimi meydana çıxmışdır.

XIX əsrin birinci yarısından etibarən maarifçilik ideyalarının yayılması ilə Azərbaycanda baş vermiş köklü ictimai-siyasi və mədəni dəyişikliklər yeni tipli teatrın, məktəbin və mətbuatın yaranmasını təmin etməklə milli özünüdərkin gerçəkləşməsi üçün zəmin hazırladı. Abbasqulu ağa Bakıxanov və Mirzə Fətəli Axundzadə ilə başlayan bu yolu yeni tarixi mərhələdə Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Əli bəy Hüseynzadə və digər görkəmli şəxsiyyətlər davam etdirərək milli məfkurənin təşəkkülü və inkişafına mühüm təsir göstərirdilər. Həmin dövrdə güclü sahibkarlar təbəqəsinin formalaşdığı neft şəhəri Bakı eyni zamanda milli ruhlu ziyalılar nəslinin yetişdiyi ictimai-siyasi fikir mərkəzinə çevrilmişdi. Rusiyanın Dövlət dumalarına və Müəssislər məclisinə seçilmiş azərbaycanlılar müstəmləkədən azad, demokratik dövlət sistemi yaratmağa hazır idilər.

Bununla yanaşı, Rusiyada çarizmin süqutundan sonra bolşeviklərin hakimiyyəti ələ keçirməsi ilə keçmiş imperiya ərazisində mürəkkəb geosiyasi vəziyyət yaranmışdı. Dünyanın aparıcı dövlətlərinin Bakı neftinə marağının siyasi çarpışmaları daha da gərginləşdirdiyi belə bir şəraitdə Azərbaycanın tərəqqipərvər siyasi elitası müstəqil milli dövlətçiliyin yaradılması naminə birləşdi.

1918-ci il may ayının 28-də Azərbaycanın müstəqilliyini bəyan edən İstiqlal bəyannaməsi qəbul edildi. Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni imkanlarının ən son həddində çalışaraq şərəflə yerinə yetirdi. Azərbaycanın ilk Parlamenti və Hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi. Ölkənin ərazi bütövlüyü və milli təhlükəsizliyi təmin edildi, qısa müddətdə yüksək döyüş qabiliyyətli hərbi hissələr yaradıldı, milli tələblərə və demokratik prinsiplərə uyğun dövlət orqanları quruldu, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi, Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü.

Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycanı Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı. Cümhuriyyət parlamentinin il yarımlıq fəaliyyəti boyunca qəbul etdiyi qanunlar milli dövlətin müstəqilliyinin möhkəmləndirilməsinə, siyasi və iqtisadi inkişafa, mədəniyyət və maarif sahələrində sürətli irəliləyişə imkan verdi. Azərbaycan Xalq Cümhuriyyəti daim sülhsevər siyasət apararaq bütün dövlətlərlə qarşılıqlı əməkdaşlıq əlaqələri yaratmağa və bir-birinin hüquqlarına hörmət prinsipləri əsasında münasibətlər qurmağa cəhd göstərirdi. Dünya birliyi tərəfindən tanınmış Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində Azərbaycanın beynəlxalq hüququn subyekti olması 1920-ci ilin aprel ayındakı bolşevik işğalından sonra Azərbaycanın bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı.

Azərbaycan Xalq Cümhuriyyəti təcavüzə məruz qaldığı üçün qarşıya qoyduğu məqsədlərə tam müvəffəq ola bilmədən süquta uğrasa da, onun şüurlarda bərqərar etdiyi müstəqillik ideyası unudulmadı. Azərbaycan xalqı ötən dövr ərzində milli dövlətçilik atributlarının bir çoxunu qoruyub saxlaya bildi. Ümummilli lider Heydər Əliyevin respublikada uğurla gerçəkləşdirdiyi siyasət xalqımızın tarixi-mədəni yaddaşını özünə qaytararaq milli mənlik şüurunu inkişaf etdirdi, azərbaycançılıq məfkurəsi işığında müstəqillik arzularının güclənməsi və yaxın gələcəkdə yenidən həqiqətə çevrilməsinə zəmin yaratdı.

1991-ci ildə müstəqilliyinin bərpasına nail olarkən müasir Azərbaycan Respublikası özünün qədim dövlətçilik ənənələrinə sadiq qaldığını göstərdi, Xalq Cümhuriyyətinin siyasi və mənəvi varisi olmaqla onun üçrəngli bayrağını, gerbini, himnini qəbul etdi. Xalqımız Cümhuriyyətin istiqlalını dünyaya yaydığı 28 May gününü həmin vaxtdan Respublika günü olaraq təntənə ilə qeyd edir.

Sərəncama əsasən Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyi respublikada dövlət səviyyəsində geniş qeyd ediləcək.

Nazirlər Kabinetinə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirmək tapşırılır.

Milli Məclisə isə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin yaranmasının 100 illik yubileyi münasibətilə xüsusi iclasın keçirilməsi tövsiyə edilir.

# AZƏRBAYCAN "BAKI-2017" IV İSLAM HƏMRƏYLİYİ OYUNLARINA YÜKSƏK SƏVİYYƏDƏ EV SAHİBLİYİ ETDİ

***Azərbaycan daha bir mötəbər beynəlxalq idman tədbirinə - "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarına yüksək səviyyədə ev sahibliyi edərək tarix yazdı. On gün ərzində İslam dünyasının idman nəbzi Bakıda döyündü. İslamiadanın yarışları, sözün həqiqi mənasında, əsl idman və həmrəylik bayramına çevrildi, maraqlı və parlaq qələbələrlə yadda qaldı. "Bakı-2017"də iştirak edən ölkələr arasında Azərbaycan 75 qızıl medalla birinci oldu. İdman arenalarında Azərbaycanın dövlət himni 75 dəfə səsləndi, dövlət bayrağı 162 dəfə qaldırıldı.***



Mayın 22-də Bakı Olimpiya Stadionunda idman həvəskarlarına bir çox unudulmaz, sevinc dolu anlar bəxş edən Oyunların təntənəli bağlanış mərasimi keçirildi.

Tamaşaçılar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi, birinci xanım, "Bakı-2017" Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanı, İslam Həmrəyliyi İdman Federasiyasının baş katibi Faisal Abdulaziz Al-Nasseri hərarətlə salamladılar.

Bu gün "Bakı-2017"nin uğurunu şərtləndirən iki amili xatırlatmaq yerinə düşər. Yarışların gedişi bir daha təsdiqlədi ki, Təşkilat Komitəsinin sədri, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə Oyunlara yüksək səviyyədə hazırlıq görülüb, ən incə detallar belə nəzərə alınıb. Bakının 16 idman arenası ötən on gün ərzində tam qüsursuz fəaliyyət göstərdi və yaradılan şərait həm idmançıların, həm də tamaşaçıların ürəyincə oldu. Əminliklə demək olar ki, Bakıda keçirilən Oyunlar İslamiadanın tarixinə möhtəşəm idman bayramı kimi yazıldı.

İslam Həmrəyliyi İdman Federasiyasının prezidenti Şahzadə Abdullah Bin Mosaad Bin Əbdüləziz Oyunların təşkilini yüksək qiymətləndirərək deyib: "Azərbaycan paytaxtında möhtəşəm idman və dostluq bayramı başa çatır. Bakı İslam ölkələrinin atletlərinə bacarıqlarını nümayiş etdirmək, dörd qitədən gəlmiş insanlara birlik və anlaşma ruhunda qarşılıqlı əlaqələri qeyd etmək məqsədilə gözəl şəraiti təmin etdi. Bu əlamətdar İslam Həmrəyliyi Oyunları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə, Birinci vitse-prezident və "Bakı-2017"nin Təşkilat Komitəsinin sədri xanım Mehriban Əliyevanın və onun Azərbaycan İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsində çalışan heyətinin fəaliyyəti sayəsində qonaqpərvər ev sahibinin səyləri ilə mümkün oldu. İslam Həmrəyliyi İdman Federasiyası adından Bakı sakinlərinə və Azərbaycan xalqına göstərdikləri fədakarlığa və çox böyük qonaqpərvərliyə görə təşəkkürümü bildirmək istəyirəm. Biz sizi 2021-ci ildə İstanbulda keçiriləcək Oyunlarda yenidən görməyi səmimiyyətlə arzulayırıq".



Azərbaycanın gənclər və idman naziri, İslam Həmrəyliyi Oyunları Əməliyyat Komitəsinin baş icraçı direktoru Azad Rəhimovun sözlərinə görə, Oyunlar İslam ölkələrinin dostluğunu təcəssüm etdirdi: "IV İslam Həmrəyliyi Oyunlarının həyəcan dolu 10 günü idman, bayram və dostluğun təntənəsindən xəbər verir. "Bakı-2017" Əməliyyat Komitəsinin işinin başa çatmasına baxmayaraq, paytaxt şəhərimizin dünyada beynəlxalq idman və mədəniyyət mərkəzi kimi fəaliyyəti davam edir. Biz Bakıda bu yay keçiriləcək Formula-1 Azərbaycan Qran-Pri turnirində, 2017-ci ildə qadınlar arasında Avropa voleybol çempionatında və 2020-ci ildə UEFA-nın Avropa çempionatının dörddəbir final oyunlarında və üç qrup qarşılaşmasında bütün dünyanı yenidən salamlamağı səmimiyyətlə arzulayırıq".

Oyunların uğurunu təmin edən digər mühüm amil son illər Azərbaycanın beynəlxalq idman tədbirlərinin keçirilməsində qazandığı zəngin təcrübədir. Azərbaycan ilk Avropa Oyunları, 42-ci Ümumdünya Şahmat Olimpiadası, 17 yaşadək futbolçular arasında Avropa çempionatı, bədii gimnastika üzrə Dünya Kuboku, Formula-1 kimi mötəbər yarışlara uğurla ev sahibliyi edib, özünü dünyada idman ölkəsi olaraq tanıda bilib. IV İslam Həmrəyliyi Oyunlarının uğuru, idmançılarımızın inanılmaz qələbələri bunun daha bir parlaq nümayişi oldu.

*(Ardı 2-ci səhifədə)*

# AZƏRBAYCAN "BAKI-2017" IV İSLAM HƏMRƏYLİYİ OYUNLARINA YÜKSƏK SƏVİYYƏDƏ EV SAHİBLİYİ ETDİ

*(Əvvəli 1-ci səhifədə)*





Statistikaya diqqət yetirək: Bakıya rekord sayda - 54 ölkəni təmsil edən 3 mindən çox idmançı, 2000-dək komanda rəsmisi və texniki nümayəndə gəlib. İndiyədək İslam Həmrəyliyi Oyunlarına bu qədər ölkənin və idmançının qatılması heç vaxt müşahidə olunmayıb.

"Bakı-2017"ni 50-dən artıq ölkədə 1 milyarddan çox tamaşaçı izləyib. Yarışları 1000-dən çox media nümayəndəsi, o cümlədən Oyunların rəsmi media tərəfdaşı olan AZƏRTAC-ın 70-dək əməkdaşı işıqlandırıb.

İdmanın 24 növü üzrə keçirilən yarışlarda atletlər 269 dəst medal uğrunda mübarizə aparıblar. Azərbaycan idmançıları xalqımızı parlaq qələbələri ilə sevindirərək, yarışları birinci pillədə başa vurublar. Hamıdan çox qızıl medal qazanan atletlərimiz 162 medalla (75 qızıl, 50 gümüş və 37 bürünc) birinci olublar. Millimizin aktivinə ən çox medal cüdoçularımız tərəfindən yazılıb. Onlar, ümumilikdə, 26 medal - 11 qızıl, 12 gümüş və 3 bürünc əldə ediblər. Qazanılan uğurda güləşçilərimizin (23 medal) və gimnastlarımızın (20 medal) da böyük payı var.

Türkiyə ikinci (195 medal), İran üçüncü (98 medal), Özbəkistan dördüncü (63 medal), Bəhreyn beşinci (21 medal) yerdə qərarlaşıb. Ümumilikdə yarışlarda 40 ölkənin idmançıları 1600 medal qazanıblar.

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın bir sıra yarışları arenalarda izləmələri və qaliblərə medalları şəxsən təqdim etmələri Oyunlara marağı daha da artıraraq, onu yeni məzmunla zənginləşdirib.



Tamaşaçılar gözəl və mükəmməl idman qurğusu olan Bakı Olimpiya Stadionunun tribunalarında öz yerlərini tutdular: 68 min yerlik stadion tamaşaçılarla doldu. Meydança müasir səs sistemi ilə təchiz olunmuş 360 dərəcəli nəhəng səhnəyə çevrildi.

Səhnə tərtibatı İslam incəsənətinin bənzərsiz həndəsi naxışlarına və ənənəvi Azərbaycan xalçalarının elementlərinə əsaslanır. Səhnənin mərkəzində döymə üsulu ilə hazırlanmış və hamarlanmış diametri 8 metr olan böyük su sinisi və hündürlüyü 25 metrə çatan "Həyat ağacı" yerləşdirilib.

Mayın 20-də atletika yarışları başa çatdıqdan sonra səhnə cəmi 36 saat ərzində qurulub. "Bakı-2017"nin açılış və bağlanış mərasimlərinin hazırlanmasına 31 ölkədən 5000-dən çox səhnə mütəxəssisi, texniki heyət və aktyorlar qrupu cəlb olunub. Bağlanış mərasimi 1500 könüllü tərəfindən canlandırıldı.

Bağlanış mərasiminin möhtəşəmliyini bu faktlardan aydın görmək olar: Oyunların açılış şousunda istifadə olunmuş 270 dönmə dərəcəli işıq dirəyini 360 dönmə dərəcəsinə çevirmək üçün 12 nəfər 36 saat çalışıb. Mərasim üçün 75 kilometr elektrik kabelləri və 7 meqavatlıq generator gətirilib. Stadionda 300-dən çox səsgücləndirici qoyulub və 12 kilometr uzunluğunda kabel çəkilib. Mindən çox işıq avadanlığı 60 kilometrlik kabellərlə birləşdirilib. "Bakı-2017"nin açılış və bağlanış mərasimlərinin kostyumlarının tikilməsi üçün 15 min metr parçadan istifadə olunub.

Stadiondakı nəhəng monitorda İçərişəhər canlandı. Gənc qadın burada havaya qızılı toz üfürdü. Gilavar qonaqpərvərliyi və xeyirxahlığı ilə məşhur olan ölkəmizdə hər qapını açaraq onu bütün Azərbaycana yaydı.

Xəzərdən əsən, özü ilə hərarət gətirən külək – gilavar qışı yumşaldır, havanı mülayimləşdirir və nəhayət, baharın müjdəsini çatdırır, insanları dənizkənarı bulvara, əylənib şənlənməyə səsləyir. Hamını qoynuna alan gilavar küləklər şəhəri Bakıya qonaq gələn hər kəsi salamlayır. Məhz onun müsbət, güclü enerjisi bağlanış mərasiminin əsas qayəsini təşkil edirdi.

Böyük monitorda Azərbaycanın bir çox təbii və memarlıq abidələrini - Şəki Xan Sarayı, Qobustan Milli Qoruğu, Şirvanşahlar Sarayı, Qız Qalası və Heydər Əliyev Mərkəzini seyr edən tamaşaçının diqqəti yenidən Bakı Olimpiya Stadionuna yönəldi.

Sonra 10-dan 1-ə geriyə sayım başladı və bununla da IV İslam Həmrəyliyi Oyunlarının bağlanış mərasiminə start verildi.

Bu axşamkı mərasimdə 1500 könüllü çıxış edirdi.

Stadionda Yaşar Baxışın "Əbədi birlik" əsəri səsləndi.

Azərbaycan bayrağı Xüsusi Dövlət Mühafizə Xidmətinin Milli Qvardiyasının hərbçiləri tərəfindən stadiona gətirilərək, dövlət himninin sədaları altında dirəyə qaldırıldı. Stadion üzərində Azərbaycan bayrağının rənglərini təcəssüm etdirən atəşfəşanlıq oldu.

İdmançıların paradı başladı. İslam Həmrəyliyi Oyunlarında iştirak edən atletlər öz ölkələrinin milli bayraqları ilə stadiona daxil oldular. Paradı ev sahibi olan Azərbaycan atletləri tamamladı. Bu mərasim "Amarok" qrupunun ifasında "Naxçıvan halayı" ilə müşayiət olundu.

Xatırladaq ki, yarışlarda Əfqanıstan, Albaniya, Əlcəzair, Bəhreyn, Banqladeş, Benin, Bruney, Burkina-Faso, Kamerun, Çad, Komor Adaları, Kot d'İvuar, Cibuti, Misir, Qabon, Qambiya, Qvineya, Qvineya-Bisau, Qayana, İndoneziya, İran, İraq, İordaniya, Qazaxıstan, Qırğızıstan, Livan, Malayziya, Maldiv, Mali, Mavritaniya, Mərakeş, Mozambik, Niger, Nigeriya, Oman, Pakistan, Fələstin, Qətər, Səudiyyə Ərəbistanı, Seneqal, Sierra-Leone, Somali, Surinam, Suriya, Tacikistan, Toqo, Tunis, Türkiyə, Türkmənistan, Uqanda, Birləşmiş Ərəb Əmirlikləri, Özbəkistan, Yəmən və Azərbaycan idmançıları iştirak ediblər.



İdmançıların paradı zamanı Tünzalə Ağayeva, Samirə Allahverdi, Samirə Əfəndi, Hafex & Sahil Umud, Nigar Camal, Aygün Kazımova, Rilaya, Diana Miro populyar Azərbaycan mahnılarını səsləndirdilər.

Səhnədə quraşdırılmış "Həyat ağacı"na su verildi və o, rişə atmağa başladı. Ağacın ümumi uzunluğu 80 metr olan kökləri səhnənin kənarından çıxdı.

Aktyorlar qrupu üç rəngdə - yaşıl, qəhvəyi və göy rəngdə 60 ipək zolaqla səhnəyə çıxdılar. Süni quşlar onların başları üzərində uçur və bu zaman ipək zolaqlar birləşərək gözəl mənzərə yaradır. Yaşıl rəng - meşələri, qəhvəyi - dağları, göy isə çayları təcəssüm etdirirdi.

İpək zolaqlar sonda Azərbaycan bayrağının formasını aldı.

Mindən çox ağ hava şarı buludlara çevrildi və aktyorlar onları ip vasitəsilə hərəkətə gətirdilər. İpək zolaqlar Azərbaycanın yerdən çıxan əbədi odlarını əks etdirdi.

Səhnə üzərində qanadlarının uzunluğu 3,4 metr olan 50 süni quş uçdu.

"Şərəfli ölkə" adlanan bu səhnənin nümayişi zamanı Azərbaycan musiqi qrupu "Amarok" "İncilər" mahnısını səsləndirdi.

Stadiondakı ekranlarda 10 günün idman yarışlarından epizodlar nümayiş etdirildi. Tamaşaçılar inanılmaz bacarıq, mübarizlik və sevinc anlarını bir daha seyr etdilər. Yarışların sevincli və kədərli anları da oldu. Bununla belə, son nəticədə dostluq qalib gəldi.

Yarış epizodlarının nümayişi zamanı Azərbaycanın "Eurovision-2015" beynəlxalq mahnı müsabiqəsinə təqdim etdiyi "Hour of the Wolf" mahnısı səsləndirilirdi.

Günəş qalxdı və səhnə üzərində hərəkət etdi. Onun fırlanan 60 paneli qızılı şüanı göstərmək üçün hava hərəkəti ustaları tərəfindən idarə olunurdu. Diametri 6 metr olan günəşin şüası səhnədə növbəti kompozisiyaya start verdi. "Xəzərin üzərində nur" adlanan bu səhnəciyi 454 aktyor canlandırdı. Stadionda "Qarabağ şikəstəsi"nin əzəmətli sədaları səsləndi.

Kitab formasında bir-biri ilə birləşdirilmiş 1000-dən çox əlvan üçbucaq iki böyük altıbucaq formalaşdırdı. Kitabın səhifələri "şəbəkə" sənətindən ilhamlanaraq, maraqlı naxışları yaratmaq üçün 110 səhnə iştirakçısı tərəfindən vərəqlənirdi. Günəş öz yerini tutduğu zaman həmin kitablar açılaraq göy işıq saçdı və havaya qaldırılaraq Xəzərin gözəl 3D görüntüsünü yaratdı.

Stadionda "Gilavar" kompozisiyasının nümayişi başladı. Bakı bulvarının gündəlik əyləncəli həyatından səhnələr nümayiş etdirildi. Kimi çərpələng və hava şarları ilə oynayır, kimi şahmat taxtası arxasında əyləşib, kimi də küləyin əllərdən qopardığı qəzetlərin arxasınca qaçırdı. Bütün rekvizit və kostyumlar gilavarı əks etdirən dalğavari naxışlarla bəzədilmişdi.

Səhnə iştirakçıları "Yallı" getdiyi zaman buludlar qalxdı.

Mindən artıq hava şarı və gilavar "Həyat ağacı"nın yarpaqlarını gecə səmasına qaldırdı.

Stadionda Gülarə Əliyevanın "Şur fantaziyası" səsləndirildi.

Səmada işıq saçan aypara göründü və səhnə üzərində hərəkət etdi. Aktyorlar qlobus saxlayan əlləri və sülh rəmzi olan göyərçini formalaşdırdı.

"Həmrəylik ruhu" adlı bu kompozisiyada aktyorlar Azərbaycanın dekorativ incəsənətində və memarlığında işlədilən və alov mənasını daşıyan buta fiqurlarını yaratdılar.

Aypara səhnənin mərkəzinə doğru hərəkət etdi. Səhnə iştirakçıları aypara formalaşdırmaq üçün 750-dən artıq alov yandırdı. Onlar fəvvarəyə çevrilən su sinisini dövrəyə aldılar. Əllidən çox İslam ölkəsinin qovuşan suları gözəl fəvvarəyə çevrildi və ayparaya doğru yüksəldi.

Su yüksəldikcə Aydan parıltılı konfetti səpələndi.

Beləliklə, Bakı İslamiadanın birlik və həmrəylik ruhunu dünya ilə bölüşdü.

"Natiq" ritm qrupunun ifasında "Qarabağ" mahnısının sədaları stadiona yayıldı.

Diqqət yenidən monitorlara yönəldi. Ekranlarda təxminən 8000 könüllünün Oyunların uğurla keçirilməsinə verdiyi böyük töhfəni təsvir edən videoçarx nümayiş olundu.

Stadionda Azad Vəliyevin "Yeni gün" mahnısı səsləndi.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, "Bakı-2017" Təşkilat Komitəsinin sədri xanım Mehriban Əliyeva çıxış üçün səhnəyə dəvət olundu.



**Xanım Mehriban Əliyevanın çıxışı**

- Azərbaycan Respublikasının Prezidenti

Zati-aliləri İlham Əliyev,

İslam Həmrəyliyi İdman Federasiyasının baş katibi

Zati-aliləri Faisal Abdulaziz Al-Nasser,

İslam Həmrəyliyi İdman Federasiyasının hörmətli üzvləri,

Zati-aliləri,

İslam aləminin idmançıları,

Xanımlar və cənablar,

Hörmətli qonaqlar.

"Bakı-2017" İslam Həmrəyliyi Oyunlarının bağlanış mərasiminə xoş gəlmisiniz!

Əziz həmvətənlər!

Azərbaycan növbəti tarixi qələbəyə imza atdı. Dördüncü İslam Həmrəyliyi Oyunlarının ölkəmizdə keçirilməsi bütün İslam dünyasının Azərbaycana və Azərbaycan xalqına olan hörmət və dəstəyinin təzahürüdür. Əminəm ki, 50-dən çox ölkəni təmsil edən idmançılar və paytaxtımızın qonaqları Azərbaycanla bağlı xoş xatirələri öz qəlblərində qoruyub saxlayacaqlar.

Bu günlər ərzində Azərbaycan xalqı qonaqpərvərliyini və mehribanlığını bir daha nümayiş etdirdi. Azərbaycan göstərdi ki, o, böyük idman dövlətidir. Milli komandamız ümumi hesabda birinci yeri qazandı. Bu tarixi qələbə ilə fəxr edir və Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bundan da böyük qələbə bu günlər ərzində nail olduğumuz İslam aləminin həmrəyliyi və birliyinin təntənəsidir. Gəlin, hamımız bu birliyi qoruyaq, İslam həmrəyliyini gücləndirək. Qoy, Allah bütün müsəlmanları qorusun!

Əziz dostlar, son 10 gün ərzində İslam aləminin idmançıları idman, dostluq və birliyin möhtəşəm təntənəsi çərçivəsində bir araya gəldilər. Onların mübarizliyi və fədakarlığı həqiqətən valehedici oldu. Onların çıxışlarını seyr etmək böyük hisslər yaratdı.

İdmançılar, mən sizi nailiyyətləriniz münasibətilə təbrik edirəm və İslam aləminin tamaşaçılarına verdiyiniz sevincə görə sizə təşəkkürümü bildirirəm. Bu, sizin Oyunlar idi və sizin idman yarışlarında çıxışınız onları möhtəşəm etdi. Ümidvaram ki, Bakıdan ayrıldıqda ən xoş xatirələrinizi bütün həyatınız boyu əziz tutacaqsınız.

Azərbaycanın milli komandası 162 medal, o cümlədən 75 qızıl medal qazanaraq, medallar cədvəlində birinci yer tutaraq, bizi bir daha fərəhləndirdi. Azərbaycan idmançıları, sizin fədakarlığınız və ustalığınız həmvətənlərimizi ilhamlandırmaqda davam edir və gələcək nəslə ən parlaq nümunə kimi xidmət edəcək.

Son 10 gün ərzində burada, Bakıda bizim üçün və hamı üçün bu Oyunlarda gördüyümüz İslam aləminin həmrəyliyi növbəti böyük qələbə oldu. Olduqca fərəhləndiricidir ki, Azərbaycan xalqlar arasında dostluq ruhuna dəstək verdi. Biz hamımız gələcəkdə bu ülvi missiyanın davam etdirilməsi üçün yorulmadan çalışmalıyıq.

Mən xalqlar arasında həmrəylik əlaqələrini gücləndirən İslam aləminin idmançılarını Bakıda salamlamaq üçün yaratdığı fürsətə görə İslam Həmrəyliyi İdman Federasiyasına təşəkkürümü bildirmək istəyirəm.

Bu Oyunlar və bir çox digər mühüm beynəlxalq idman, humanitar və siyasi tədbirlər Bakının açıqlıq və tolerantlıq mərkəzi kimi nüfuzunu daha da möhkəmləndirdi. Paytaxtımız İslam idman ictimaiyyətini açıq qəlblə qəbul etdi və bu Oyunların uğurlu olması bütün Azərbaycanın fədakarlığına və qəhrəmanlığına işarədir.



Bütün dünyadan gəlmiş qonaqlarımız özünün qədim irsinə və ənənələrinə sadiq olan, gələcəyinə qətiyyətlə baxan ölkənin – Azərbaycanın zəngin mədəniyyəti və məşhur qonaqpərvərliyi ilə tanış oldular. Dünyanın ən gözəl şəhərlərindən birində, Bakıda sizi görməkdən məmnun olduq. Biz açıq qəlblə sizi yenidən Azərbaycanda görməyimizi səmimiyyətlə arzulayırıq.

Əziz könüllülər, çox sağ olun: qonaqlarımız özlərini evlərindəki kimi hiss etdilər. Siz bu Oyunların uğurlu olmasında böyük rol oynadınız. Əgər atletlər "Bakı-2017"nin döyünən ürəyidirsə, siz bu Oyunların geniş qəlbi idiniz. Siz dünyaya səmimiyyətinizi və iradənizi göstərdiniz. Mən gördüyünüz işlərə görə hər birinizə olduqca minnətdaram.

Biz dünyanı Bakıda salamlamaqda davam edəcəyik: bu yay Formula-1 Azərbaycan Qran-Pri turniri, sentyabrda qadınlar arasında voleybol üzrə Avropa çempionatı keçiriləcək və 2020-ci ildə burada, Bakı Olimpiya Stadionunda futbol üzrə Avropa çempionatının oyunları baş tutacaq.

"Bakı-2017" Oyunlarının başa çatdığı bir anda, mən bu möhtəşəm tədbirdə iştirak etmiş hər bir şəxsə, idmançılara və tamaşaçılara, təşkilatçılara və könüllülərə təşəkkürümü bildirmək istəyirəm.

Mən məmnuniyyətlə elan edirəm ki, növbəti İslam Həmrəyliyi Oyunları 2021-ci ildə İstanbulda keçiriləcək. Biz türk qardaş və bacılarımıza böyük müvəffəqiyyətlər arzulayırıq.

Beləliklə, mən qürur hissi ilə IV Bakı İslam Həmrəyliyi Oyunlarını bağlı elan edirəm.

Sağ ol, Bakı!

Sağ ol, Azərbaycan!

(Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, "Bakı-2017" İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın çıxışı dəfələrlə sürəkli alqışlarla qarşılandı).

**X X X**

Sonra İslam Həmrəyliyi İdman Federasiyasının baş katibi Faisal Abdulaziz Al-Nasser çıxış etdi.

**Faisal Abdulaziz Al-Nasserin çıxışı**

- Azərbaycan Respublikasının Prezidenti.

Zati-aliləri İlham Əliyev,

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, "Bakı-2017" İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinin sədri

Zati-aliləri Mehriban Əliyeva,

İslam Həmrəyliyi İdman Federasiyasının hörmətli üzvləri,

Zati-aliləri,

İslam aləminin idmançıları,

Xanımlar və cənablar.

Bu axşam keçirilən bağlanış mərasimi burada, Azərbaycanın paytaxtında möhtəşəm idman və dostluq bayramının başa çatmasından xəbər verir. Bakı dövlətlərimizin atletlərinə bacarıqlarını nümayiş etdirmək, dörd qitədən gəlmiş insanlara birlik və anlaşma ruhunda qarşılıqlı əlaqələrimizi qeyd etmək məqsədilə yaradılmış gözəl şəraitləri təmin etdi.

Bu əlamətdar İslam Həmrəyliyi Oyunları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, "Bakı-2017"nin Təşkilat Komitəsinin sədri xanım Mehriban Əliyevanın və onun Azərbaycan İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsində çalışan heyətinin fəaliyyəti sayəsində qonaqpərvər ev sahibinin səyləri ilə mümkün oldu.

Mən İslam Həmrəyliyi İdman Federasiyası adından idmançılara Oyunlarda iştirak etdiklərinə, könüllülərə "Bakı-2017"yə verdikləri töhfəyə və Azərbaycan xalqına göstərdiyi fədakarlığa, çox böyük qonaqpərvərliyə görə təşəkkürümü bildirmək istəyirəm.

Dörd ildən sonra "İstanbul-2021" Oyunlarını qeyd etmək üçün bir daha bizə qoşulmağınızı səmimiyyətlə arzulayıram.

Sağ ol, Bakı! Sağ ol, Azərbaycan!

**X X X**

Monitorlarda 2021-ci ildə V İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi edəcək İstanbul şəhərindən görüntülərin, idman qurğularının əks olunduğu videoçarx nümayiş etdirildi.

Xüsusi Dövlət Mühafizə Xidmətinin Milli Qvardiyasının hərbçiləri İslam Həmrəyliyi İdman Federasiyasının bayrağını endirdilər.

İslam Həmrəyliyi İdman Federasiyasının baş katibi Faisal Abdulaziz Al-Nasser bayrağı Türkiyə Respublikasının gənclər və idman nazirinin müavini, "İstanbul-2021" İslam Həmrəyliyi Oyunlarının nümayəndəsi Kamuran Özdənə təqdim etdi.

Bu səhnələr Benjamin Brittenin "The Young Person's Guide to the Orchestra" musiqisi, Rövşən Əsgərzadənin "Qəhrəmanlıq uvertürası" ilə müşayiət olundu.

Türkiyənin dövlət himni – "İstiqlal marşı" səsləndirildi və Azərbaycan bayrağının yanında qardaş ölkənin bayrağı qaldırıldı.

Bağlanış mərasimi "Birlik" adlı konsertlə davam etdi.

Səmra Rəhimli, Nigar Camal, Miri Yusif, Səbinə Babayeva və Eldar maraqlı ifaları ilə tamaşaçılarda xoş ovqat yaratdılar. Rəngli döşəmədəki proyeksiyalar səhnəyə canlılıq gətirdi.

Tünzalə Ağayevanın ifasında "Sürət – 2017 Azərbaycan Qran-Prisi" mahnısı səsləndi. İfa zamanı 30 səhnə iştirakçısı Bakı şəhər halqasını təsvir edən əsas səhnədə işıqsaçan çubuqlarla rəqs etdi.

Müğənni "Birlik" konsertini "Bakı-2017"nin könüllülərinə həsr olunmuş "Salam Bakı" himni və "Mən azərbaycanlıyam" mahnısı ilə yekunlaşdırdı.

Yaddaşlarda dərin iz qoyan, artıq tarixə çevrilən IV İslam Həmrəyliyi Oyunlarının bağlanış mərasimi Bakı Olimpiya Stadionunun üzərində möhtəşəm atəşfəşanlıqla başa çatdı.



## DÜNYANIN NÜFUZLU TƏSNİFAT CƏMİYYƏTLƏRİNDƏN OLAN ABS NÜMAYƏNDƏLƏRİ GƏMİÇİLİKDƏ

***Mayın 18-də dünyanın ən nüfuzlu təsnifat cəmiyyətlərindən sayılan Amerika Gəmiçilik Bürosunun (ABS) nümayəndələri Dmitri Houliarakis, Elias Kariabas, Biş Bişavi ilə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyevin görüşü keçirilib.***

Gəmiçiliyin son illər əldə etdiyi uğurlardan söhbət açan Rauf Vəliyev bundan sonra da şirkətin əsas məqsədinin yalnız inkişaf olduğunu bildirib. Qurumun rəhbərinin sözlərinə görə, bu müddət ərzində Gəmiçiliyin həm nəqliyyat, həm də neft donanmalarının ən müasir gəmilər hesabına yenilənməsinə xüsusi diqqət yetirilib. Eyni zamanda əməkdaşların peşəkarlıq səviyyəsinin artırılması üçün təlimlər keçirilir.

Görüşdə Gəmiçiliklə birgə həyata keçirilən layihələrlə bağlı müzakirələr aparılıb. ABS nümayəndələri də qarşılıqlı əməkdaşlıqdan məmnunluqlarını ifadə ediblər və bundan sonra da "AXDG" QSC-yə lazım olan köməkliyi göstərəcəklərini bildiriblər.

ABS tərəfindən beynəlxalq standartlara uyğun sertifikatlar alan Gəmiçilik nüfuzlu təsnifat şirkəti ilə əməkdaşlığı bundan sonra da davam etdirəcək.



## QARDAŞLAŞMIŞ LİMANLARIN İKİNCİ İCLASI OLUB

***Mayın 22-də Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) Bakı-Aktau-Samsun qardaşlaşmış limanların ikinci iclası keçirilib.***

Azərbaycanın nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə ölkəmizin nəqliyyat və tranzit potensialından danışıb. Bildirib ki, Azərbaycanın tranzit potensialı nəzərə alınaraq ölkəmizdə irimiqyaslı nəqliyyat layihələri icra edilir.

Nazir qeyd edib ki, hazırda Ələtdə Xəzər dənizinin ən böyük limanı inşa edilir. Liman Şimal-Cənub, Şərq-Qərb marşrutları üzrə əsas logistik mərkəzə çevriləcək. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ərazisində Azad İqtisadi Zonanın yaradılması isə gələcəkdə buranı nəqliyyat-logistika mərkəzinə çevirməklə yanaşı tranzit potensiala da öz töhfəsini verəcək.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibinin müavini Ömer Kocaman isə ilk iclasdan ötən dövrdə Bakı, Aktau və Samsun limanları üzrə görülən işlər, bu limanların Türk Şurası üçün əhəmiyyətindən danışıb.

Sonra Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin nümayəndələri təqdimatlarla çıxış ediblər.

## APRELDƏ DƏNİZLƏ DAŞIMALARIN HƏCMİ ARTIB

***Cari ilin aprelində "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin gəmiləri ilə daşınan yüklərin həcmində çoxalma olub. Artım həm maye, həm də quru yüklərdə qeydə alınıb.***

Hesabat dövründə 2189 avtomaşının daşınması isə keçən ilin eyni dövründəki nəticəni 67 faiz üstələməyə imkan verib.

Hesabata görə, ötən ay dəniz nəqliyyatı ilə 2300 vaqon daşınıb. Keçən ilin eyni dövründə həmin rəqəm 2143 olub. Bu, faizlə ifadədə 7% artım deməkdir. Əlavə edək ki, ümumilikdə vaqonlarla 370505 ton maye, 73208.5 ton quru yüklər daşınıb.

2017-ci ilin aprelində dəniz nəqliyyatı ilə daşınan sərnişinlərin sayında da artım baş verib. Belə ki, ay ərzində 1551 sərnişin daşınıb. Bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə 120 nəfər çoxdur.

Xatırladaq ki, Gəmiçilik daşımalar üçün online sifariş də qəbul edir. Yükün növü, yüklənmə və gediş limanları, ödəyən şəxs və daşınan nəqliyyat vasitəsi barədə məlumatlar daxil edildikdən sonra biletin qiyməti avtomatik hesablanır. Bu sistem istifadəçi üçün vaxt itkisinin qarşısının alınması baxımından çox əlverişlidir. Tariflər qurumun www.acsc.az internet saytında yerləşdirilib.



# GƏMİÇİLİKDƏ "TƏHLÜKƏSİZLİK GÜNÜ" KEÇİRİLİB

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin rəhbər şəxsləri üçün "Təhlükəsizlik Günü" keçirilib. Toplantı çərçivəsində "Gəmiçilikdə təhlükəsizliyə və sağlamlığa göstərilən diqqət", "Baş vermiş təkrarlanan hadisələr", "Hadisələr niyə araşdırılmalıdır", "Nümunəvi liderlik", "Elektronlaşmanın müsbət təsiri" mövzularında məruzələr edilib, ətraflı fikir mübadiləsi aparılıb.***

Öncə Keyfiyyət, sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühitin mühafizəsi departamentinin (KSƏTƏMM) rəisi Ələkbər Əzizli geniş məruzə ilə çıxış edib. O, Gəmiçilikdə təhlükəsizlik məsələlərinin hər zaman xüsusi diqqətdə saxlanıldığını deyib. Bildirib ki, Gəmiçilikdə təhlükəsizliklə bağlı sərt tələblər mövcuddur və bu tələblərə hər bir əməkdaş əməl etməlidir.

Elektronlaşmanın müsbət təsirlərindən danışarkən isə dəniz üzgüçülüyünün təhlükəsizliyi məqsədilə gəmilərin elektron xəritələrlə təchizatını xatırladıb. Ələkbər Əzizlinin sözlərinə görə, belə yeniliklər gələcəkdə də davam etdiriləcək.

Dəniz üzgüçülüyünün təhlükəsizliyi departamentinin rəis müavini Rövşən Dəmirov baş vermiş təkrarlanan hadisələr barədə məlumat verib. Görülən tədbirlər hesabına son dörd ildə belə hadisələrin sayında azalma olduğunu qeyd edib. O, müsbət nəticənin əldə olunmasında hadisələrin araşdırılması və təhlilinin mühüm rol oynadığını xüsusilə diqqətə çatdırıb.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC sədrinin müşaviri, tanınmış kapitan Titos Giannakakis çıxışında nümunəvi liderlik məsələsinə diqqət çəkib. Peşəkar kapitan bu məsələdə toplantı iştirakçıları ilə şəxsi təcrübəsini bölüşüb. Bildirib ki, hər bir dənizçinin liderlik qabiliyyətinə malik olması əsas şərtlərdəndir və bu, çətin anlarda köməyə gələn həlledici faktordur.

Bundan başqa, Titos Giannakakis təlimlərin əhəmiyyətindən də danışıb. Gəmiçiliyin rəhbəri Rauf Vəliyevin təşəbbüsü ilə belə treninq və məşğələlərin mütəmadi təşkilinin təqdirəlayiq olduğunu vurğulayıb.

Sonda çıxış edən "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev bildirib ki, bütün heyət çalışmalı, təhlükəsizlik mədəniyyəti barədə daha çox öyrənməli və öz təcrübəsini digərləri ilə bölüşməlidir. Çünki, təhlükəsiz iş şəraitini təmin etmək əsas vəzifələrimizdəndir.

















Toplantının sonunda müvafiq videoçarxlar nümayiş olunub, digər çıxışlar dinlənilib, rəy və təkliflər öyrənilib.

Tədbir çərçivəsində rəhbər heyət Gəmiçiliyin tabeliyində olan "Bibiheybət" Gəmi Təmiri Zavoduna da baş çəkib və müəssisədə təhlükəsiz iş şəraitini müşahidə edib, öz qeydlərini bildiriblər.

# "TİCARƏT BAĞLILIĞI" BƏYANNAMƏSİ İMZALANIB

***Azərbaycanla Çin arasında ticarətin və investisiyaların təşviqi ilə regionboyu ölkələrin birgə əməkdaşlığını nəzərdə tutan "Ticarət Bağlılığı" bəyannaməsi imzalanıb.***

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, iqtisadiyyat naziri Şahin Mustafayevin rəhbərlik etdiyi rəsmi şəxslərdən ibarət Azərbaycan nümayəndə heyəti Çində keçirilən "Bir kəmər - bir yol" iqtisadi inkişaf strategiyası çərçivəsində Yüksək Səviyyəli Beynəlxalq Forumda iştirak edib. Nümayəndə heyətində Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, SOCAR, "Azərbaycan Dəmir Yolları" QSC, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı yüksək vəzifəli şəxslərlə təmsil olunub.

Yüksək Səviyyəli Beynəlxalq Forumda 29 ölkədən dövlət və hökumət başçıları, 110 ölkədən dövlət və özəl sektor nümayəndələri, səhmdarlar, 60-dan çox beynəlxalq təşkilatın nümayəndəsi, ümumilikdə 1500-dən çox nümayəndə iştirak edib. Qeyd edək ki, Azərbaycanın əsas məqsədi ölkələr arasında əməkdaşlığın gücləndirilməsi olan "Bir kəmər - bir yol" təşəbbüsünün "İpək yolu iqtisadi kəməri" inkişaf istiqamətinə daxildir. 2015-ci ilin dekabrında Azərbaycan Respublikası Prezidentinin Çin Xalq Respublikasına dövlət səfəri çərçivəsində Azərbaycan Respublikası hökuməti ilə Çin Xalq Respublikası hökuməti arasında "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviqi haqqında" Anlaşma Memorandumu imzalanıb.

Azərbaycanda tranzit potensialının reallaşdırılması istiqamətində mühüm işlər görülüb. Belə ki, Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin birinci mərhələsi istifadəyə verilib, Kompleksin ikinci mərhələsi üzrə işlər davam



etdirilir. Ən müasir texnologiyalara əsaslanan Gəmiqayırma Zavodu tikilib və hazırda uğurla fəaliyyət göstərir, iri gəmiçilik inkişaf etdirilir.

Bununla yanaşı, çoxsaylı digər infrastruktur layihələri həyata keçirilib, avtomobil və dəmir yolları, beynəlxalq hava limanları tikilib və ya yenidən qurulub. Böyük əhəmiyyətinə görə "Dəmir İpək yolu" adlandırılan Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi tərəfdaşlarla birlikdə uğurla icra olunur. Bu layihənin reallaşması Asiya və Avropa dəmir yollarının inteqrasiyasına öz töhfəsini verəcək və Çindən Avropaya daşımalar qısa müddətdə mümkün olacaq. Azərbaycan, həmçinin Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin inkişafında da aktiv fəaliyyət göstərən ölkələrdəndir. Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi üzrə nəzərdə tutulan inşaat işləri ölkəmiz tərəfindən sürətlə icra edilib.

"Bir kəmər - bir yol" iqtisadi inkişaf strategiyası çərçivəsində Yüksək Səviyyəli Beynəlxalq Forumda açılış mərasimi, yüksək səviyyəli plenar və tematik iclaslar və s. olmaqla bir sıra tədbirlər keçirilib. Azərbaycan nümayəndə heyəti bu tədbirlərdə iştirak edib. "Ticarət Bağlılığı" tematik iclasının sonunda birgə bəyannamə imzalanıb ki, bu sənəd ticarətin və investisiyaların təşviqi ilə regionboyu ölkələrin birgə əməkdaşlığını nəzərdə tutur.

Səfər çərçivəsində iqtisadiyyat naziri Şahin Mustafayev Çinin "Huawei" şirkətinin Mərkəzi Ofisində olub və Şirkətin Mərkəzi Asiya və Qafqaz regionu üzrə prezidenti Ceyms Çen ilə görüşüb. İKT sahəsində əməkdaşlıq imkanlarının müzakirə edildiyi görüşdə nazir Şahin Mustafayev Azərbaycan və Çin arasında iqtisadi əlaqələrin genişləndiyini, qarşılıqlı səfərlərin və keçirilən görüşlərin əməkdaşlığın inkişafında mühüm rolunu diqqətə çatdırıb. Qeyd edilib ki, qeyri-neft sektorunun, o cümlədən İKT-nin inkişafı Azərbaycan iqtisadiyyatının prioritet istiqamətlərindəndir və indiyədək bu sahədə bir sıra işlər görülüb. Azərbaycan İKT sahəsində dünyanın tanınmış şirkətləri ilə əməkdaşlıqda maraqlıdır. Bu baxımdan korporativ sahədə, rəqəmsal iqtisadiyyat və s. kimi istiqamətlər üzrə "Huawei" şirkəti ilə əməkdaşlıq mümkündür. "Huawei" şirkətinin fəaliyyəti barədə məlumat verən Ceyms Çen İKT sahəsində dünyada tanınmış şirkətlərdən olan "Huawei"nin 170-dən çox ölkədə, o cümlədən 2001-ci ildən Azərbaycanda fəaliyyət göstərdiyini, şirkətin Azərbaycanda fəaliyyətini daha da genişləndirməkdə maraqlı olduğunu bildirib. Görüşdə Dənizkənarı Milli Park və Dövlət Bayraq Meydanı ərazilərində əhalinin pulsuz internetlə təminatını nəzərdə tutan "İctimai İnternet" şəbəkəsi çərçivəsində "Huawei" şirkəti tərəfindən görülmüş işlərin əhəmiyyəti vurğulanıb.

Çinin "China CAMC Engineering Co. Ltd." şirkətinin vitse prezidenti Chen Yu Fang ilə keçirilmiş görüşdə sənaye sahəsində ixtisaslaşmış şirkət barədə məlumat verilib, əməkdaşlıq imkanları nəzərdən keçirilib. Bildirilib ki, "China CAMC Engineering Co. Ltd." Çin Milli Maşınqayırma Sənayesi Korporasiyasının (SİNOMACH) ən böyük 3 törəmə şirkətindən biridir, 48 ölkədə 100-dək iri sənaye layihəsi həyata keçirib. Şirkət Azərbaycanla da sənaye sahəsində bir sıra layihələrdə əməkdaşlıq edir. Görüşdə bu layihələrə dair fikir mübadiləsi aparılıb, əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə olunub.

Azərbaycan nümayəndə heyətinin üzvləri aidiyyəti qurumlarla görüşlər keçirib.

Səfər çərçivəsində Azərbaycanda SOCAR GPC layihəsi üzrə SOCAR, Çin Milli Neft Şirkəti (CNPC) və Çin İnkişaf Bankı arasında, eləcə də Azərbaycan və Çin arasında texniki tənzimləmə, metrologiya, standartlaşdırma və uyğunluğun qiymətləndirilməsi sahələrində anlaşma memorandumları imzalanıb.

# AZƏRBAYCAN DÖVLƏT DƏNİZ AKADEMİYASI TƏHSİL NAZİRLİYİNİN AKKREDİTASİYASINDAN UĞURLA KEÇİB





***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 28 sentyabr 2010-cu il tarixli 167 nömrəli qərarı ilə təsdiq olunmuş "Təhsil müəssisələrinin Akkreditasiya Qaydaları"na və Azərbaycan Respublikası Təhsil Nazirliyinin 26.04.2011-ci il tarixli 656 nömrəli əmri ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin fəaliyyətinin dövlət standartlarının tələblərinə uyğunluğunu müəyyənləşdirən meyarlar"a müvafiq olaraq, Azərbaycan Dövlət Dəniz Akademiyasının akkreditasiyası keçirilib.***

Təhsil Nazirliyinin Akkreditasiya və Nostrifikasiya İdarəsinin 25.01.2017-ci il tarixli 01 nömrəli əmri ilə yaradılmış Akkreditasiya Komissiyası fevral ayından işləyərək, müvafiq Yekun Hesabat hazırlayıb.

Hesabatda qeyd olunur ki, Dəniz Akademiyası Azərbaycan elminin dənizçilik istiqaməti üzrə elmi mərkəzidir və bu sahədə elmi tədqiqatların aparılmasında, normativ sənədlərin işlənilməsində, elmi-pedaqoji kadrların hazırlanmasında mühüm rol oynayır. Akademiya fəaliyyət göstərdiyi dövrdə təkcə respublikamiz üçün deyil, həmçinin bir çox xarici ölkələr üçün də yüksəkixtisaslı mütəxəssislər və elmi kadrlar hazırlayıb, dünyanın nüfuzlu elmi-tədqiqat mərkəzləri, beynəlxalq təşkilatlarla sıx əlaqələr yaradıb. Hazırda bu əlaqələr daha da genişlənərək xeyli zənginləşib.

Akkreditasiya Komissiyasının yekun qərarına görə, Azərbaycan Dövlət Dəniz Akademiyasının 5 illik fəaliyyəti "Dövlət Təhsil Standartları"nın tələblərinə uyğundur.

Qeyd etmək lazımdır ki, Azərbaycan Dövlət Dəniz Akademiyası 1996-cı ildə yaradılıb və fəaliyyət göstərdiyi 20 il ərzində Təhsil Nazirliyinin akkreditasiyasından ilk dəfədir uğurla keçir.

# TANINMIŞ KAPİTAN: "AXDG-NİN DƏNİZÇİLƏRİ PEŞƏKARDIRLAR"

***www.seanews.az-ın müxbirinin nüfuzlu beynəlxalq təsnifat cəmiyyətlərindən olan Amerika Gəmiçilik Bürosunun (ABS) sabiq nümayəndəsi, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC sədrinin müşaviri, tanınmış kapitan Titos George Giannakakislə müsahibəsi***



**– Bir müddətdir "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC ilə əməkdaşlıq edirsiniz. Bu əməkdaşıq haqqında nə deyə bilərsiniz?**

– Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi demək olar ki, dünyada bütün növ nəqliyyat və ofşor donanmasına malik unikal şirkətlərdəndir. Hazırda Gəmiçilik müştərilərə geniş və keyfiyyətli xidmət göstərir. Tam əminliklə deyə bilərəm ki, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi regionda rəqabətədavamlı nümunəvi meyarlar müəyyənləşdirən şirkətlərdəndir. Bunda müxtəlif səviyyələrdə bacarıq və qabiliyyətə malik mütəxəssislərin, ixtisaslaşmış kadrların, gəmi idarəçilərinin və ən əsası, rəhbərliyin böyük rolu var. Gələcəkdə şirkətin daha da inkişaf etməsi gözləniləndir. Atılan ardıcıl uğurlu addımlar belə deməyə əsas verir. Və belə nüfuzlu şirkətlə əməkdaşlıq mənim üçün böyük əhəmiyyətə malikdir. Bakıda olmağımdan və Azərbaycan dənizçiləri ilə dostluğumdan məmnunam.

**– Azərbaycan dənizçilərinin peşəkarlığını necə qiymətləndirirsiniz?**

– Dənizçilik bir çox vəzifə, öhdəlik və məsuliyyətdən ibarətdir. Mən demək olar, 15 il dənizdə işləmişəm, gəmi kapitanı vəzifəsinə qədər yüksəlmişəm. Təcrübəmə əsaslanıb deyə bilərəm ki, hər bir dənizçi gəmidə çətin vəziyyətlərlə üzləşir. Bu vəziyyətlər isə dənizçidən dərhal qərar qəbul etmək bacarığı tələb edir. Təhlükə anında dənizçi insan amilini və dəniz şəraitini əlaqələndirməyi bacarmalıdır. Bu nöqteyi-nəzərdən mən AXDG-nin dənizçilərinin peşəkarlığını yüksək qiymətləndirirəm. Çünki onlar komanda işinin öhdəsindən çox yaxşı gəlirlər. Bu, dəniz şəraitində fövqəladə vəziyyətlərdə çox vacibdir.

**– Dənizçilərimizin təlimlərə marağı barədə nə deyə bilərsiniz?**

– Dənizçilər təbiət etibarı ilə öyrənməyə çox meyllidirlər. Bacarıqlarını artırmaq onlara imkan verir ki, dənizdə yaranan problemləri daha tez həll edə bilsinlər. Təlimlər zamanı AXDG-nin dənizçilərinə real hadisələrdən nümunə gətirirəm. Elə hadisələr ki, onlar bütün gəmilərdə baş verə bilir. Təbii ki, təlimlərdə iştirak edən təcrübəli dənizçilər də şəxsi təcrübələrini bölüşürlər. Bacardığım qədər onları maraqlandıran mövzulardan danışıram. Əsas məqsədim təhlükəsizlik barədə ətraflı məlumat vermək, karyeralarını inkişaf etdirmək üçün şərait yaratmaqdır. Sevinirəm ki, dənizçilər dərslərə həvəslə gəlirlər. Azərbaycan dilində danışa bilməməyimə baxmayaraq, biz AXDG-nin dənizçiləri ilə bir-birimizi çox yaxşı anlayırıq.

**– Seminarlar dənizçilərin peşəkarlığının artırılmasında nə kimi rol oynayır?**

– Mənim fikrimcə, istənilən təlim, kurs və seminar dənizçilik sahəsində baş verən sürətli dəyişikliklər və cari hadisələr baxımından dənizçilərin peşəkarlığını artırır. Məşq və təlimlər bütün heyətə keçirilir. Bütün hallarda təlimlərdə dənizçilər təzə nəsə öyrənirlər. Bununla yanaşı, gəmilərdə yeni texnologiyaların tətbiqi, donanmaların müxtəlifliyi, gəmi avadanlıqlarının modernizasiyası və dəniz qanunlarının daim yenilənməsi təlim tələb edir. Digər tərəfdən, dənizçilər profesional statuslarını qorumaq üçün mütəmadi təlim keçməlidirlər. Bu eyni zamanda onlara gələcəkdə yeni nəsil gəmiləri idarə edə bilmək imkanı qazandırır.

**– Keçdiyiniz təlimlər beynəlxalq təcrübənin tətbiqində Azərbaycan dənizçilərinə nə dərəcədə kömək olur?**

– İlk növbədə deyim ki, dənizçinin iş prinsipi istər Xəzər, istər Qara, istərsə də Baltik və ya Aralıq dənizlərində dəyişmir. Onların qarşısında duran vəzifələr də bütün hallarda eynidir. Ona görə, dəniz təcrübəsi deyəndə biz ancaq beynəlxalq təcrübəni nəzərdə tuturuq. Bu təcrübəni Beynəlxalq Dəniz Təşkilatı təsdiq edib və Beynəlxalq Dənizçilik Konvesiyasına inteqrasiya olunub. Təcrübədən Beynəlxalq Təhlükəsizlik Kodeksi çərçivəsində dünyanın bütün dənizçiləri və gəmiləri istifadə edirlər. Azərbaycan dənizçiləri də beynəlxalq təcrübənin tətbiqində olduqca peşəkardırlar.

**– Bu dəfəki təlimdən gözləntiləriniz nədən ibarətdir? Seminar hansı mövzuları əhatə edəcək?**

– Ümumiyyətlə, hər hansı uğurlu təlimin əsas məqsədi şirkətin gəmilərinin təhlükəsizlik standartlarına uyğun idarə olunması, gəmiçilərə əlavə bilik və bacarıqlar verməkdən ibarətdir. Deyə bilərəm ki, hazırda beynəlxalq şirkətlər bu məsələlərə xüsusi önəm verirlər. Təlimlər zamanı qaçılmaz hadisələrdən danışacağıq. Texniki planlaşdırma məsələsinə aid ayrıca seminarımız olacaq. Təmir işlərinin təhlükəsizlik baxımından necə aparılması kimi mühüm mövzuya da toxunacağıq.

**– "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin öz əməkdaşları üçün mütəmadi olaraq belə təlimlər təşkil etməsini mütəxəssis kimi necə dəyərləndirirsiniz?**

– AXDG-nin regionda və beynəlxalq sularda nüfuzu getdikcə artır. Qarşıdakı illərdə şirkətin beynəlxalq ticarət donanmasının gəmilərinin sayının artacağı gözlənilir. Şübhə yoxdur ki, AXDG-də 5000 dənizçinin olmasına baxmayaraq, gələcəkdə təlim keçmiş və gəmiləri təhlükəsiz idarə etməyi bacaran əlavə dənizçilərə ehtiyac olacaq. Bu səbəbdən Gəmiçiliyin təşkil etdiyi təlimlər olduqca əhəmiyyətlidir.

**– Azərbaycan gəmiçiliyi ilə bundan sonrakı əməkdaşlığınız barədə nə düşünürsünüz?**

– Gəmiçiliyin böyük gələcəyi var. Söhbətimizin əvvəlində də dediyim kimi, şirkətin göstərdiyi xidmətlərin artırılması qaçılmazdır. Təkcə Xəzər regionunda yox, həm də bütün xaricdə bu, mümkün olacaq. Beynəlxalq nüfuza malik AXDG-nin tanınması və brendinin yaradılması onun mənfəətinin artmasına da kömək edəcək. Bu isə yeni gəmilərin alınması, yerli və beynəlxalq sularda fəaliyyət göstərən daha peşəkar dənizçilər tələb edəcək. Beləliklə, beynəlxalq standartlar səviyyəsinə görə AXDG dünya dəniz ticarətinin inkişafına töhfə verə biləcək. Ən əsası, Azərbaycan Dövlət Dəniz Akademiyasının məzunlarını işlə təmin edəcək.

*Ayla Allahverdiyeva*

# DƏNİZ SAHƏSİ İLƏ BAĞLI İLK İXTİSASLAŞMIŞ WWW.SEANEWS.AZ SAYTI XİDMƏTİNİZDƏDİR



***Azərbaycanda dəniz sahəsi ilə bağlı ilk ixtisaslaşmış www.seanews.az saytı fəaliyyətə başlayıb.***

Azərbaycanımızı dənizsiz təsəvvür etmək mümkün olmadığı kimi, dənizləri də gəmilərsiz təsəvvür etmək çətindir. Harada üzməsindən asılı olmayaraq, dor ağacında müstəqil Azərbaycanın üçrəngli bayrağı dalğalanan gəmilər Vətənimizin bir parçası sayılır. Elə buna görə, çətin olduğu qədər də şərəfli dənizçi həyatına, gəmiçiliyin inkişafına maraq heç vaxt azalmayıb. Müasir dövrün tələblərinə uyğun olaraq, ölkəmizin nəqliyyat-tranzit potensialından daha səmərəli istifadənin təmini, Azərbaycanın logistik mərkəzə çevrilməsi, milli daşıyıcıların xarici bazarlara girişinin asanlaşdırılması istiqamətində ardıcıl addımlar atılır. Bu, özlüyündə yeni informasiyaların ortaya çıxmasına zəmin yaradır. Elə www.seanews.az saytının da əsas məqsədi dəniz nəqliyyatı ilə bağlı yenilikləri operativ şəkildə sizə çatdırmaqdır. İlk nömrəsi 1931-ci ildə işıq üzü görən və çapına heç vaxt ara verilməyən "Dəniz" qəzetinin online versiyası kimi www.seanews.az dənizçilik və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin digər tərəfdaş şirkətləri haqqında daim yenilənən xəbərlər, maraqlı videomateriallar, dənizçi sülalələri, ən yaxşı kapitan və mexaniklər haqqında yazılar, taleyini dəniz nəqliyyatı ilə bağlayanlarla müsahibələr, ekspert rəyləri ilə xidmətinizdədir. Saytda Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu, "Şimal-Cənub", "Şərq-Qərb" beynəlxalq dəhlizləri, Xəzərdə aparılan neft-qaz əməliyyatları barədə də mütəmadi məlumatlar yerləşdiriləcək. www.seanews.az-ın köməkliyi ilə siz təkcə Azərbaycanda deyil, ayrı-ayrı ölkələrdə gəmiçiliklə bağlı maraqlı xəbərləri anında əldə edə biləcəksiniz. Məqsədimiz bu sahədə informasiya bazası rolunu oynamaqdır.

*www.seanews.az*

# "AZƏRBAYCANDAN KEÇƏN KLASSİK İPƏK YOLU DAHA PERSPEKTİVLİDİR"

***"İpək Yolu iqtisadi kəməri" layihəsinin Azərbaycandan keçən beynəlxalq nəqliyyat dəhlizi marşrutu daha çox perspektivli və bütün altı əsas dəhliz arasında ən klassikidir.***



Bu fikri Rusiya Elmlər Akademiyası Uzaq Şərq İnstitutunun direktoru, Rusiya Beynəlxalq Məsələlər Şurasının üzvü Sergey Luzyanin "Bir kəmər – bir yol" Pekin Sammitinin yekunlarını şərh edərək "Vestnik Kavkaz"a müsahibəsində səsləndirib.

S.Luzyanin ilk növbədə Xəzər dənizindən, Azərbaycan, Gürcüstan və Türkiyədən keçən marşrutun proqnozlaşdırılan, təhlükəsiz olduğunu vurğulayıb. "Daha çox ölkəni əhatə edən bu dəhliz digərləri ilə müqayisədə ən perspektivlisidir. Klassik İpək Yolu nöqteyi-nəzərindən bu yol 2-3 min il bundan əvvəlki, yəni Orta Asiyadan, Xəzər və Qafqazdan Aralıq dənizi ölkələrinə keçən marşrutun təkrarı olacaq. Bu elə əsl tarixi İpək Yoludur və hazırda onu praktik olaraq bütün məntəqələrdə bərpa edirlər", - deyə Sergey Luzyanin məlumat verib.

Bütün infrastruktur mürəkkəbliyinə baxmayaraq, Azərbaycandan keçən marşrut daha çox iqtisadi potensiala malikdir. "Aydındır ki, azı 7-8 dövləti, o cümlədən Mərkəzi Asiya regionunu və Xəzər hövzəsini birləşdirmək lazım gələcək, lakin tranzit, əmtəə mübadiləsi və kapital baxımından bu marşrut çox perspektivlidir. Çin həmişə inkişaf etməkdə olan dünyanın lideri kimi çıxış edib və o, bu layihənin inkişafına böyük investisiyalar yatıra bilər. Çinin iki bankına artıq 23,1 milyard dollar həcmində proqram təklif edilib. Bu vəsait logistikaya, qovşaqların və anbarların yaradılmasına, birgə istehsalların təşkilinə sərf olunacaq", - deyə Rusiya Elmlər Akademiyasının Uzaq Şərq İnstitutunun direktoru bildirib.

# NƏQLİYYAT SEKTORU ÜZRƏ KOORDİNASİYA KOMİTƏSİNİN İCLASI KEÇİRİLİB

***Mayın 17-də Tbilisidə Mərkəzi Asiya Ölkələrinin Əməkdaşlıq Proqramının (CAREC) nəqliyyat sektoru üzrə koordinasiya komitəsinin 16-cı iclası keçirilib.***

Mayın 19-dək davam edən iclasda əsasən CAREC-in nəqliyyat dəhlizlərinin mövcud vəziyyəti, təşkilata yeni üzvlərin qəbulu, investisiya imkanları və yeni investorların cəlb olunması, eləcə də perspektiv planlar müzakirə olunub.

İclasda Azərbaycanın İqtisadiyyat, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirliklərinin və "Azərbaycan Dəmir Yolları" QSC-nin nümayəndələri iştirak ediblər.

Bildirilib ki, hazırda 11 ölkə CAREC-ə üzvdür. Başqa ölkələrin də bu proqrama qoşulması investisiya imkanlarının artmasına və ümumi nəqliyyat dəhlizlərinin genişlənməsinə səbəb ola bilər. Bu gün Azərbaycandan keçən dəhlizin modernləşdirilməsi də diqqət mərkəzindədir. Çin, Hindistan, Pakistan, Əfqanıstan və digər ölkələrdən Özbəkistan və Qazaxıstana gələn yüklər Xəzər dənizi vasitəsilə Azərbaycana gətirilir və buradan da Gürcüstana daşınır. Gürcüstandan isə həmin yüklər Avropaya aparılır.

Böyük İpək yolunun Azərbaycandan keçən hissəsində dəmir yolu xəttinə paralel olaraq daha iki xəttin çəkilməsi və bununla da yolun dördzolaqlı olması üçün Asiya İnkişaf Bankı kredit ayırıb. Bu vəsait, eləcə də Azərbaycan hökumətinin maliyyə imkanları hesabına artıq yolun Bakıdan Gəncəyə qədər olan hissəsində yol dördzolaqlıdır. Gəncədən Gürcüstan sərhədinə qədər olan hissədə isə işlər davam edir.

Eyni zamanda, qeyd olunub ki, Bank Bakı-Tbilisi-Qars dəmir yolunun təkmilləşdirilməsinə də vəsait ayırmaqda maraqlıdır. Bu layihəyə Bakı-Tbilisi-Qars dəmir yolunda elektrik xətlərinin çəkilməsi, yol nişanlarının qoyulması və təkmilləşdirmə işləri daxildir.

İclasda digər təşkilati məsələlərə də baxılıb.

*Xətayi Əzizov*

# XƏZƏRİN STATUSU İLƏ BAĞLI KONVENSİYA QAZAXISTANDA DÖVLƏT BAŞÇILARININ GÖRÜŞÜNDƏ İMZALANA BİLƏR



***Xəzər dənizinin hüquqi statusu ilə bağlı Konvensiya Qazaxıstanda keçirilməsi nəzərdə tutulan Xəzəryanı ölkələrin dövlət başçılarının görüşündə imzalana bilər.***

Bu barədə Rusiya xarici işlər nazirinin müavini Qriqori Karasin "Kommersant" qəzetinə müsahibəsində deyib.

Mayın 17-də Həştərxanda Rusiyanın Xəzər ölkələrindəki səfirlərinin müşavirəsi keçirilib. Tədbirin əsas məqsədi Xəzər ölkələri dövlət başçılarının görüşünə hazırlıq olub. Q.Karasin qeyd edib ki, görüşdə vəziyyət hərtərəfli təhlil edilib. "Yekun nəticə konvensiya üzərində işi başa çatdırmaq və Qazaxıstanın keçirmək istədiyi beşinci Xəzər sammitində imzalamaqdır", - deyə o bildirib.

Nazir müavininin sözlərinə görə, sammitin keçirilmə vaxtı hələ müəyyən edilməyib: "Müddəaların çox hissəsinin razılaşdırıldığı gələcək konvensiyada bütün sahilyanı ölkələrin tələbləri harmonik şəkildə balanslaşdırılıb, onlardan heç birinin milli maraqları diqqətdən kənarda qalmır. Konvensiya Xəzərdə təhlükəsizlik zonasının saxlanmasına, mehriban qonşuluğa zəmanət verir, iqtisadiyyat, energetika, nəqliyyat sahələrində qarşılıqlı faydalı layihələrin inkişafı üçün münbit şərait yaradır, gəmiçilik və təbiətdən istifadə, habelə balıqçılıq və bioresurs ehtiyatlarının birgə idarə edilməsi, elmi tədqiqatların aparılması üçün aydın rejimləri təmin edir".

Q.Karasin əlavə edib ki, danışıqlarda sualtı boru kəmərlərinin hamı üçün münasib formulu işlənir. Bu, 5 neft və qaz hasilatçısı olan ölkələrin həm vacib iqtisadi tələblərini, həm də Xəzərdə borular vasitəsilə karbohidrogen resurslarının nəqlindən ətraf mühitə dəyə biləcək mümkün ziyana görə ümumi narahatlıqları nəzərə alır.

*Fəridə Abdullayeva*

# ƏSASLI TƏMİRƏ DAYANAN "PROFESSOR GÜL" GƏMİ-BƏRƏSİ NƏZƏRDƏ TUTULAN VAXTDA HEYƏTƏ TƏHVİL VERİLƏCƏK

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin "Professor Gül"" gəmi-bərəsi "Zığ" Gəmi Təmiri Zavodunda əsaslı təmirə dayanıb.***

Gəmidə olan bütün maşın və mexanizmlər, baş və köməkçi mühərriklər, eləcədə nasoslar, separatorlar, soyuducular, kompressorlar sökülərək təmir sahələrinə gətirilib. Bərənin boru sistemləri və gövdə hissəsində də təmir işləri gedir. Gəmidə əlavə olaraq təhlükəli yüklərin daşınması üçün iki ədəd 13.5 $m^3$-lik çən və qazanizatorların quraşdırılması planlaşdırılır.

Uzunluğu 154.5, eni 18.3 metr, maksimal sürəti 15 uzel olan gəmi-bərə hər səfərdə göyərtəsinə 28 vaqon götürə bilir.

Xatırladaq ki, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC Xəzərdə yeganə bərə operatorudur. Gəmiçiliyin donanmasında 13 ədəd gəmi-bərə, 2 ədəd Ro-Ro tipli gəmi var. Donanmada mövcud olan 13 gəmi-bərədən 7-si 28 vaqon tutumuna, 6-sı isə 52-54 vaqon götürmə imkanına malikdir. Hazırda bu gəmi-bərələr Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə yüklərin daşınmasına xidmət edir. Rəqabətədavamlı xidmət göstərmək üçün istənilən gəmiçilik şirkəti kimi, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" də donanmasında gəmi-bərələrinin sayını artırmağa xüsusi önəm verir. Bu məqsədlə Gəmiçilik Bakı Gəmiqayırma Zavodunda 2 unikal "Ro-Pax" tipli gəmi-bərənin tikintisi barədə sifariş yerləşdirib. Bununla da Şərq-Qərb və əks istiqamətdə artması gözlənilən yüklərin daşınması maneəsiz həyata keçiriləcək. Bərələrin sayının artırılması Azərbaycanın regionda nəqliyyat-logistika qovşağına çevrilməsi, ölkənin tranzit potensialının gücləndirilməsi üçün də çox böyük əhəmiyyətə malikdir.














# "HÖVSAN-5" LİMAN YEDƏK GƏMİSİ ƏSASLI TƏMİR OLUNUB

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Xəzər Dəniz Neft Donanmasına məxsus "Hövsan-5" liman yedək gəmisi əsaslı təmir olunub. Belə ki, gəminin gövdəsinin yararsız mexanizmləri dəyişdirilib, sualtı və suüstü hissələri təmizlənərək rənglənib. Onun hərəkət-sükan kompleksi, dib-yan armaturları və protektor qurğuları da sazlanıb. Həmçinin, işçi heyətin kayutları, sanitar qovşaqları və yeməkxana tamamilə yenilənib. Ən əsası , gəminin baş və köməkçi mühərrikləri, nasosları, separatorları, boru sistemlərinin yüksək keyfiyyətdə təmiri həyata keçirilib.***

Bütün bu proses "Bibiheybət" Gəmi Təmiri Zavodunda aparılıb. Registr yoxlanışından keçəndən sonra gəmi yenidən istismara qaytarılacaq.

Xatırladaq ki, sözügedən liman yedək gəmisinin uzunluğu 29,3, eni 8,3 metrdir. Gəmi 1600 at gücünə malik mühərriklə təchiz olunub.

# DÜNYA LİMAN RƏHBƏRLƏRİ AZƏRBAYCANDA TOPLAŞACAQLAR

***"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin nümayəndə heyəti 90-a yaxın ölkədən 300-dən çox liman nümayəndələrini özündə birləşdirən Beynəlxalq Limanlar Assosiasiyasının (International Association of Ports and Harbors - IAPH) İndoneziyanın Bali şəhərində keçirilən illik konfransında iştirak edib.***

Bakı Limanından bildirilib ki, tədbirin təntənəli açılış mərasimində İndoneziya Liman Korporasiyasının icraçı direktoru Elvyn G. Masassya, Beynəlxalq Limanlar Assosiasiyasının prezidenti Santiago Garcia-Milà qonaqları salamlayıblar. Eyni zamanda tədbir çərçivəsində keçirilən beynəlxalq sərginin açılış mərasimi baş tutub. Tədbirə qatılan 1000-ə yaxın qonaq Bakı Limanının stendi ilə tanış olub və onun fəaliyyəti, qurulmaqda olan Ələt Azad Ticarət Zonası, Azərbaycanın hab konsepsiyası və s. barədə ətraflı məlumatlanıblar.

Həmin gün keçirilmiş sessiyada Bakı Limanının Baş direktoru Taleh Ziyadov "Azərbaycanın böyük hab vizionunun Avrasiyada bağlantıya təsiri" mövzusunda təqdimatla çıxış edib.

IAPH-in illik ümumi toplantısında baş direktor 2018-ci ildə konfransın Bakı şəhərində keçirilməsinə dəstək vermiş hər kəsə təşəkkür edib və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın salamlama məktubunu iştirakçıların diqqətinə çatdırıb. Birinci vitse-prezidentin müraciətində Azərbaycanın qeyri-neft sektorunun inkişafına, xüsusilə Yeni İpək Yolu çərçivəsindəki layihələrə diqqət yetirildiyi vurğulanıb.




"Bu mənada nəqliyyat və logistika sahəsində həyata keçirilən layihələr Azərbaycan, eləcə də region üçün xüsusi əhəmiyyət daşıyır. Müasir Bakı Limanının tikintisi və onun ətrafında yaradılan azad ticarət zonası ölkəmizi regionda nəqliyyat və logistikanın mərkəzinə çevirmək məqsədi daşıyır. İnanıram ki, aşırma gücü ildə 25 milyon ton yük və 1 milyon konteynerə çatacaq bu nəhəng layihənin gözəl gələcəyi olacaq", - deyə müraciətdə qeyd olunub.

Daha sonra Azərbaycana və Bakı Limanına həsr olunmuş qısa film nümayiş olunub və 2018-ci ildə qonaqlar Bakıda keçirilən tədbirə dəvət edilərək, onlara Bakı Limanı və Azad Ticarət Zonası, ölkəmizin qədim tarixi və zəngin mədəniyyəti ilə daha yaxından tanış olmaq imkanı əldə edəcəkləri bildirilib.

Konfrans çərçivəsində Bakı Limanının 2018-ci ildə dünya limanları toplantısına ev sahibliyi etməsi münasibəti ilə yerli və xarici mətbuat üçün xüsusi mətbuat konfransı keçirilib və eyni zamanda Bakı Limanı və İndoneziya Liman Korporasiyası arasında Anlaşma Memorandumu imzalanıb.

2018-ci il mayın 8-11-də "Gələcəyin Limanları: mərkəzlərin yaradılması, bağlılığın sürətləndirilməsi" adı altında baş tutacaq bu konfrans MDB məkanında ilk dəfə Azərbaycanda keçiriləcək. Dünyanın müxtəlif ölkələrindən 1000-ə yaxın beynəlxalq təşkilatların nümayəndələri, liman rəhbərləri, nəqliyyat və logistika sahəsində ixtisaslaşmış ekspertlərin ölkəmizə səfər etməsi gözlənilir.

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC 2010-cu ildən etibarən Beynəlxalq Limanlar Assosiasiyasının üzvüdür.

# TAP BORU KƏMƏRİNİN TƏMƏLİNİN QOYULMASINDAN BİR İL ÖTDÜ

***Ötən bir ildə TAP-ın inşası üzrə işlərin 40,3 faizi icra edilib***

Azərbaycan təbii qazının Avropaya nəqlini nəzərdə tutan "Trans-Adriatik" (TAP) qaz boru kəmərinin təməli ötən il mayın 17-də Yunanıstanın Saloniki şəhərində qoyulub. Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından hasil olunacaq qazı Türkiyəyə və bu ölkədən də Avropaya daşıyacaq 3 min 500 kilometr uzunluğundakı "Cənub Qaz Dəhlizi"nin tərkib hissəsi olan TAP Cənubi Qafqaz Boru Kəmərinin və TANAP-ın davamı olub, "Şahdəniz-2"-dən hasil olunacaq qazın Yunanıstan və Albaniya vasitəsilə, Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya nəqlini nəzərdə tutur. TAP Avropa İttifaqı üçün prioritet enerji layihələrindən biridir.




TAP boru kəməri TANAP ilə birləşəcək və Yunanıstanın Türkiyə ilə sərhəddə yerləşən Kipoi ərazisindən başlayacaq. Buradan TAP boru kəməri Yunanıstan və Albaniya ərazisini qət edərək şərqdən qərbə Adriatik dənizi sahillərinə doğru istiqamətlənəcək və İtaliyanın Puqlia bölgəsində sahilə çıxacaq. Boru kəməri burada "Snam Rete Gas" şirkətinin istismar etdiyi İtaliyanın qaz nəqliyyatı şəbəkəsinə birləşəcək. Bu layihə Azərbaycan qazının İtaliya, Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün böyük imkanlar yaradır. TAP-ın ilkin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olacaq və bu həcmin gələcəkdə 20 milyard kubmetrədək artırılması nəzərdə tutulub.

Boru kəməri Avropanın üç ölkəsinin ərazisindən – Yunanıstan, Albaniya və İtaliyadan keçir. Boru kəmərinin uzunluğu 878 kilometr, diametri isə 48 düymdür. TAP boru kəmərinin ən aşağı hissəsi dəniz səviyyəsindən təxminən 820 metr dərinlikdə, ən yüksək hissəsi Albaniya dağlarında 1800 metr hündürlükdən keçəcək. 2020-ci ilədək layihə üzrə Azərbaycan şirkətlərinin xərclərinin 1,2 milyard dollar olması gözlənilir. Layihənin ümumi dəyəri 4,5 milyard avro olacaq. Buraya 2009-cu ildən bəri davam edən dizayn və mühəndislik işləri də daxil edilib. "Şahdəniz" konsorsiumu ilk qaz satışını 2018-ci ilin sonunda Türkiyəyə və Gürcüstana həyata keçirəcək. Avropaya ilk qazın verilməsi isə bundan təxminən 1 il sonra 2020-ci ilin əvvəllərində planlaşdırılır.

TAP-ın Yunanıstandan keçən 550 kilometrlik hissəsi üçün lazım olan 32 min borunun təqribən 66 faizi tikinti sahələrinə çatdırılıb. Həmin boruların ümumi çəkisi 323 min tondur. Bu ölkədə TAP kəməri marşrutu üzrə indiyədək 270 kilometr ərazi təmizlənib, xətt boyunca 234 kilometr boru düzülüb. Boruların 203 kilometri qaynaq edilib. Eyni zamanda, 165 kilometr xəndək qazılıb, 134 kilometrlik hissədə borular xəndəyə endirilib. Artıq xəttin 115 kilometrlik hissəsində borular qaynaq edilərək torpağa basdırılıb. Xətt boyunca 21 kilometr sahə isə tamamilə əvvəlki vəziyyətinə gətirilib.

Hazırda Yunanıstanda layihə üzrə 2 min 500 nəfər çalışır. Onlardan 400-ü arxeoloq və bu sahədə ixtisaslaşmış işçilərdir. Layihənin həyata keçirilməsinə 176 yunan şirkəti cəlb olunub.

Boru kəmərinin inşası çərçivəsində Yunanıstanda ilk hidrosınaq bu ay uğurla başa çatıb. Bu sınaq kəmərin təhlükəsizliyini yoxlamaq üçün metoddur. Belə ki, boru kəməri su ilə doludurulur və ona nəzərdə tutulan təzyiqindən daha çox təzyiq vurulur. Hidrosınaq boru kəmərinin Yunanıstan üzrə ilk 1,4 kilometrlik hissəsini əhatə edib. Bu, tikinti prosesində çox mühüm addım sayılır. Çünki həmin sınaq texniki cəhətdən layihənin bir nömrəli prioriteti kimi tanınan boru kəmərinin təhlükəsizliyini təsdiq edir.

TAP-ın Albaniyadan keçən 215 kilometrlik hissəsinin inşasında istifadə ediləcək təxminən 13 min borunun indiyədək 85 faizi sahələrə təhvil verilib. Ötən ilin aprelindən etibarən TAP-ın Albaniya hissəsinin tikintisində istifadə olunacaq borular Durres limanına gəlməkdə davam edir. Həmin boruların ümumi çəkisi 126 min tondur.

İndiyədək Albaniyada TAP kəməri marşrutu üzrə 98 kilometr ərazi təmizlənib, 84 kilometr məsafədə borular xətt boyunca düzülüb. Boruların 71 kilometri qaynaq edilib. Təxminən 50 kilometr boru isə qaynaq edildikdən sonra torpaq altına basdırılıb.

Lakin mayın 10-da TAP qaz boru kəmərinin Albaniya ərazisindən keçən hissəsinin inşası müvəqqəti dayandırılıb. Buna səbəb tikinti işləri zamanı Korçe vilayətinin Turan kəndi ərazisində qədim yaşayış məskəninin izlərinin aşkarlanmasıdır. Qiymətləndirməyə əsasən, tapılan qalıqlar eradan əvvəl X-IX əsrlərə məxsusdur. Layihənin podratçısı tikinti işlərini dərhal dayandırıb və tapılan əşyalar barədə Albaniyanın Arxeoloji Xidmət üzrə Agentliyinə məlumat verilib. Hazırda alban arxeoloqlar tərəfindən ərazidə qazıntı işləri aparılır. Boru kəmərinin tikintisində işlər azı 1 ay gecikəcək. TAP-ın tarixi irs üzrə baş məsləhətçisi Nil Ferbern bildirib ki, konsorsium tarixi və mədəni irsin qorunmasına olduqca böyük əhəmiyyət verir.

Albaniyada giriş yollarının və körpülərin modernləşdirilməsinin birinci mərhələsi isə artıq başa çatıb. Bu mərhələdə təxminən 58 kilometr yolun, iki yeni körpünün tikintisi və 40 körpünün əsaslı təmiri, modernləşdirilməsi həyata keçirilib. Bu il Albaniyada TAP layihəsinə sərmayə qoyuluşu 400 milyon avro civarında olacaq. Ümumilikdə, TAP-ın Albaniya hissəsi 1,5 milyard avroya başa gələcək. Albaniya Bankı ("Bank of Albania") tərəfindən yayılan məlumata görə, ötən il bu ölkədə TAP layihəsinə yatırılan 369 milyon avro dəyərindəki sərmayə birbaşa xarici investisiyaların ümumi həcminin 40 faizini təşkil edib.

TAP-ın ümumilikdə 765 kilometrlik Yunanıstan və Albaniya hissəsində boru kəməri marşrutu boyunca ərazinin 358 kilometri - təxminən 45 faizdən çoxu təmizlənib.

Boru kəmərinin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olan ilkin layihəsi üzrə biri Kipoidə (Yunanıstan), digəri isə Fierdə (Albaniya) olmaqla ümumilikdə iki kompressor stansiyasının tikintisinə artıq başlanılıb. Kompressor stansiyalarının Mühəndislik, Təchizat və Tikintisi (EPC) üzrə podratçı - İtaliyanın "Renco S.p.A" və Yunanıstanın "Terna S.A." birgə müəssisəsi tikinti işlərinə başlayıb. Hazırda ərazilərdə torpaq təmizləmə işləri görülür, həmçinin lazımi materiallar sahələrə çatdırılır. İşlər qrafik üzrə aparılır. Bundan başqa, Fierdə 4 minədək daş sütunun yığılması qrafikə uyğun olaraq başlayıb. Stansiyaların inşası təxminən iki il ərzində fasiləsiz həyata keçiriləcək. TAP qaz boru kəməri üçün lazım olan turbo kompressorlar "Siemens" şirkəti tərəfindən istehsal edilir və bu ilin sonuna kimi təhvil veriləcək.

TAP-ın İtaliya ərazisindən keçən 8 kilometrlik hissəsinin tikintisi hazırda uğurla aparılır. Ətraf mühitə təsirin minimuma endirilməsi üçün boru kəmərinin İtaliya ərazisində meşələrdəki tikinti dəhlizinin eni 18 metrə endirilib. TAP-ın bu ölkədə digər ərazilərdəki tikinti dəhlizinin eni 38-28 metr təşkil edir.

İtaliyanın İqtisadiyyat Nazirliyi tərəfindən verilən müvafiq əsas icazə sənədinə uyğun olaraq TAP-ın inşasına dair digər müvafiq icazələrin alınması üzrə işlər davam etdirilir. Keçən ilin may ayından etibarən TAP-ın İtaliya hissəsinin inşasına başlanılıb. Ötən ilin yayından TAP marşrutu boyunca partlamamış hərbi sursatın olub-olmadığını yoxlamaq məqsədilə arxeoloji kəşfiyyatlar, eləcə də xətt üzrə bitən zeytun ağacları üçün fitosanitar tədbirlər (tozlanma) aparılır. Oktyabr-dekabr aylarında isə San Foça çimərliyində mikrotunelin tikintisi üzrə bütün geoloji tədqiqatlar yekunlaşıb. Cari ilin martında isə mikrotunelin tikiləcəyi ərazidən 231 zeytun ağacının ilk partiyasının köçürülməsinə başlanılıb. Lakin sonradan Latsio vilayət məhkəməsinin qərarı ilə zeytunlarının köçürülməsi işləri dayandırılıb.

Bu il aprelin 20-də isə İtaliya məhkəməsi TAP-ın bu ölkədəki hissəsinin tikintisi üçün marşrut üzərindəki zeytun ağaclarının köçürülməsi prosesinin dayandırılması ilə bağlı Latsio vilayət məhkəməsinin qərarını ləğv edib. Məhkəmənin qərarından sonra TAP nəzərdə tutulan qrafikdən geridə qalmamaq üçün mümkün qədər tez bir zamanda İtaliyadakı fəaliyyətini bərpa edib. TAP konsorsiumu İtaliyada boru kəməri marşrutu üzrə zeytun ağaclarının köçürülməsinə yenidən başlayıb. TAP bu prosesdə iştirak edən bütün hakimiyyət orqanları ilə əməkdaşlığı davam etdirir. Bütün işlər təhlükəsiz gedir və boru kəməri marşrutu boyunca qalan zeytun ağacları da köçürülür. Hazırda İtaliyada tikinti işləri qrafik üzrə aparılır.

İtaliyanın "Saipem S.p.A" şirkəti isə TAP boru kəmərinin Adriatik dənizindən keçəcək 37 düymlük və 105 kilometr uzunluğundakı hissəsinin tikintisinə 2018-ci ildə başlayacaq. Şirkət layihə üzrə mikrotunellərin tikintisi başa çatdıqdan sonra TAP-ın dənizdən keçəcək hissəsinin inşasına start verəcək. "Saipem S.p.A" tikinti işlərinə gələn il başlamağı planlaşdırır.

Ötən ilin aprelində TAP konsorsiumu "Saipem S.p.A" şirkəti ilə boru kəmərinin dəniz hissəsi üçün mühəndislik, təchizat, tikinti və quraşdırma (EPCI) müqaviləsi imzalayıb. TAP-ın Adriatik dənizində keçəcək 36 düyümlük hissəsi Albaniya və İtaliyanın cənub sahili arasında dəniz səviyyəsindən təxminən 820 metr dərinlikdə və təqribən 105 kilometr uzunluğunda olacaq. Müqavilə (mikrotunel daxil olmaqla) Albaniya və İtaliyada tikinti işlərini, dəniz boru kəmərinin quraşdırılmasını, fiber-optik kabel təchizatı və quraşdırılmasını əhatə edir. İzolyasiya edilmiş 36 düyümlük borular və digər qurğular TAP tərəfindən təmin olunacaq.

TAP layihəsi Avropa enerji bazarı üçün son illər irəli sürülən ən önəmli layihələrdəndir. Layihənin strateji əhəmiyyəti onun enerji təminatının təhlükəsizliyini, mənbələrin və marşrutların şaxələndirilməsini əks etdirməsindən irəli gəlir. Bu amillər hazırda enerji tələbatının yarıdan çoxunu xarici mənbələr hesabına təmin edən və daxili enerji istehsalında nəzərəçarpacaq qıtlıq yaşayan Avropa İttifaqı (Aİ) üçün olduqca vacibdir. Bu baxımdan TAP Avropanın enerji siyasətində mühüm əhəmiyyət kəsb edir.

TAP-ın səhmdarları belədir: BP (20 faiz), "Cənub Qaz Dəhlizi" QSC (20 faiz), "Snam S.p.A." (20 faiz), "Fluxys" (19 faiz), "Enagás" (16 faiz) və "Axpo" (5 faiz).

***Nihad Budaqov***

# AXDG-NİN 160 İLLİYİ QARŞISINDA

## Həmişə əzmkarlığı və işə vicdanlı münasibəti ilə seçilib

***Mirzağa Ağaverdi oğlu Xanməmmədov 1902-ci ildə Bakı şəhərində dünyaya göz açıb. Atası uzun illər daxili yanacaqla işləyən motor üzrə maşinist, anası evdar qadın olub. Mirzağa on iki yaşında anasını, on altı yaşında atasını itirib.***

Əmək fəaliyyətinə on üç yaşında başlayan Mirzağa dəyirmanda, daha sonra neft mədənlərində yağlayıcı fəhlə işləyib. 1920-ci ilin iyun ayında Zaqafqaziya dəmir yolunun Bakı emalatxanasında çilingərliyə başlayıb və əməksevərliyi ilə seçilib. Yaxşı istehsalatçı, fəal ictimaiyyətçi olan Mirzağanı kommunist partiyası sıralarına qəbul ediblər. 1922-ci ildə isə onu oxumaq üçün partiya məktəbinə göndəriblər. 1924-cü ildə Mirzağa Xanməmmədov partiya səfərbərliyi üzrə Sovet Ordusu sıralarında xidmətə gedib və 1938-ci ilədək siyasi rəhbər vəzifəsindən hissə komandiri vəzifəsinədək yüksəlib.

Mirzağa Ağaverdi oğlu 1938-ci ildə Sovet Ordusu sıralarından tərxis edildikdən sonra rəhbər partiya və təsərrüfat işində çalışıb. O, Azərbaycan SSR Ali Sovetində, Azərbaycan KP MK və BK aparatında, Azərbaycan KP-nin Vilayət Komitəsində müxtəlif vəzifələrdə çalışıb. Harada işləməsindan asılı olmayaraq, həmişə əzmkarlığı və işə vicdanlı münasibəti ilə seçilib. Böyük Vətən müharibəsi başlayanda M. Xanməmmədov Xəzərdə quru yük gəmiçiliyinin - "Xəzərdonanma"nın siyasi şöbəsinə rəis təyin edilib.

## "UNUTSAQ, UNUDULARIQ"



O illərdə ölkənin sənaye və nəqliyyatının iş ahəngini müharibə şəraitinə uyğunlaşdırmaq tələb olunurdu. Daşınan yüklərin tərkibi kəskin surətdə dəyişmişdi. Təsərrüfat yüklərini hərbi sursat və texnika əvəzləmişdi. Silahlı hərbi hissələr və təxliyyə olunmuş əhali üçün də gəmilər tələb olunurdu. Donanmanın işini operativ surətdə yenidən qurmaq lazım gəlirdi. Formalaşmış yükaxınlarına müvafiq olaraq Xəzərdə istiqamətlər müəyyənləşirdi: Orta Asiyadan qərbə Krasnovodskdan (indiki Türkmənbaşı) keçməklə hərbi hissələr, Bakıdan, Həştərxan və Mahaçqaladan isə Krasnovodska təxliyə olunmuş əhali, buğda və müharibə zonasından çıxarılmış avadanlıq və dəzgahlar, maddi sərvətlər daşınırdı.

1941-ci ilin oktyabrında cəbhədə vəziyyətin ağırlaşması Xəzər dənizini Şimali Qafqazla Zaqafqaziyanı Orta Asiyaya birləşdirən əsas magistrala çevirir və yükdaşımaların həcmi dəfələrlə artır. Əgər 1941-ci ilin avqustunadək Xəzər donanması sərəncamında olan gəmilərlə yük daşımalarının öhdəsindən gəlirdisə, artıq avqustun ortalarında kəskin tonnaj çatışmazlığı hiss olunurdu. Bakı və Mahaçqala limanlarında sərnişinlər və təxliyyə olunmuş yüklər yığılırdı. Ağır vəziyyətdən çıxmaq üçün SSRİ Dəniz Donanmasının Xalq Komissarlığı hövzədə iki gəmiçiliyi – "Xəzərdonanma" ilə "Xəzərtanker"i vahid rəhbərlikdən idarə etmək barədə 28.10.1941-ci il tarixli əmr verir. Gəmiçiliklərə rəhbərlik bu vəzifə ilə bərabər, SSRİ Dəniz Donanması Xalq Komissarının müavini vəzifəsini yerinə yetirən F. A. Matyuşevə tapşırılır. Gəmiçiliklərin siyasi şöbələri də birləşdirilir və rəis vəzifəsinə öz işi ilə fərqlənən M. Xanməmmədov təyin edilir.

Mirzağa Ağaverdi oğlunu həmin dövrdə həmişə tankerlərdə görmək olurdu. O, gəmi heyətləri ilə görüşür, onları ruhlandırır, cəbhə üçün yanacağın əhəmiyyətini onlara başa salırdı.

Məsul vəzifəsinin öhdəsindən bacarıqla gələn M. Xanməmmədov 1942-ci ildə "Şərəf nişanı" ordeni, 1944-cü ildə "Qırmızı Əmək Bayrağı" ordeni və "Qafqazın müdafiəsinə görə" medalı, 1945-ci ildə "1941-1945-ci illərdə Böyük Vətən müharibəsində Almaniya üzərində qələbəyə görə" və "1941-1945-ci illərdə Böyük Vətən müharibəsində fədakar əməyə görə" medalları ilə təltif edilib.

Müharibədən sonra "Xəzərdonanma"da fəaliyyətini davam edən Mirzağa Ağaverdi oğlunu 1952-ci ildə SSRİ Dəniz Donanması Akademiyasına oxumağa göndərirlər. Akademiyanı bitirdikdən sonra o, 1954-cü ilin oktyabrında Xəzər Dövlət Dəniz Gəmiçiliyinin rəisi təyin olunur. 1956-cı ildə Gəmiçilik yenidən təşkil edilir və gəmi təmiri zavodları da onun tabeliyinə verilir. M. Xanməmmədov həmin tarixdən 1965-ci ilin may ayınadək gəmiçiliyin rəis müavini işləyir.

"Dəniz Donanmasının fəxri işçisi", dəfələrlə Bakı şəhər zəhmətkeşləri Sovetinin və Azərbaycan SSR Ali Sovetinin deputatı, 1965-ci ildən etibarən İttifaq əhəmiyyətli fərdi təqaüdçü olan Mirzağa Ağaverdi oğlu Xanməmmədov 1983-cü ildə dünyasını dəyişib.



## Ən çətin tapşırıqların öhdəsindən bacarıqla gələn kapitan

***Uzaq səfərlər kapitanı Ağa Rəşid Qurban oğlu Ağasıyev 1928-ci il mayın 22-də Bakıda anadan olub.***

1945-ci ildə Bakı dəniz yolları məktəbinə daxil olub. 1949-cu ildə "Gəmi sürücülüyü" ixtisası üzrə təhsilini başa vurduqdan sonra Xəzər Dəniz Gəmiçiliyinin gəmilərində işləyərək kapitanlığa kimi yüksəlib.

Odessa Ali Dəniz Mühəndisləri Məktəbində "Gəmi maşınları və mexanizmləri" ixtisası üzrə təhsilini tamamladıqdan sonra uzaq səfərlər kapitanı kimi fəaliyyət göstərib. Təcrübəli, məsuliyyətli kapitan, səmimi və təmkinli şəxs kimi kollektivdə dərin hörmət qazanıb. "Qırmızı Əmək Bayrağı" ordeni və medallarla təltif olunub. "Dəniz Donanmasının fəxri işçisi" adına layiq görülüb.

Kapitan A. Ağasıyev həm də pedoqoji fəaliyyət göstərib – Bakı dəniz yolları məktəbində, Bakı balıq sənayesi texnikumunda ixtisası üzrə müdavimlərə dərs deyib. 1990-1993-cü illərdə həm də məsləhətçi kapitan kimi çalışıb.

1993-cü ilin sonundan etibarən "Xəzərdənizneftdonanma" İdarəsində işləyib. Burada da tələbkar, intizamlı və vicdanlı işçi kimi hörmət qazanıb, çətin tapşırıqların öhdəsindən bacarıqla gəlib. Müstəqil Azərbaycan dövlətinin ABŞ sahillərinə yan alan ilk gəmisini o idarə edib. ABŞ-ın Norfolk limanında kapitanı olduğu "Yarenqa" gəmisinin yedəyinə 2 gəmi alaraq Hindistanın Bombey (indiki Mumbay) limanına aparıb. Belə mürəkkəb keçidi uğurla yerinə yetirərək, Azərbaycan dənizçilik məktəbinin şərəfini ucaldıb.

Kapitan A. Ağasıyev 2008-ci ildə - 80 yaşının tamamına 4 ay qalmış dünyasını dəyişib. Gəmiçiliyin rəhbərliyi kapitan A. Ağasıyevin fədakar əməyini yüksək dəyərləndirərək, Türkiyədə inşa olunmuş liman yedək gəmisinə onun adını vermişdir.

***Sevda Abdullayeva,***
***Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin İctimaiyyətlə əlaqələr üzrə mütəxəssisi***

# "KOROĞLU" TANKERİ TƏRSANƏDƏN ENDİRİLİB














***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin "Koroğlu" tankeri "Zığ" Gəmi Təmiri Zavodunda təmirdədir.***

Artıq tərsanədən endirilən tankerdə indiyədək xeyli iş görülüb. Belə ki, onun sualtı hissəsi təmizlənərək rənglənib, baş və köməkçi mühərriklər, nasos və kompressorlar, digər vacib mexanizmlər yüksək keyfiyyətlə təmir edilib.

Bundan başqa, yük qızdırma sisteminin borularının bir hissəsi və idarəetmə sistemləri yeniləri ilə əvəzlənib. Həmçinin avar vallar və sükan qurğusu sazlanıb. Gəminin gövdəsində qaynaq işləri də yekunlaşıb. Hazırda gəmidə rənglənmə işləri gedir.

Gəmi təmirçilərinin sözlərinə görə, təmir nəzərdə tutulan vaxtdan daha tez başa çatdırılacaq. Ən əsası, görüləcək işlər onun yanacaq sərfiyyatının xeyli azalmasına imkan verəcək.

Məlumat üçün bildirək ki, 13 min ton yükgötürmə qabiliyyətinə malik "Koroğlu" tankeri 2006-cı ildə istismara verilib. Uzunluğu 149,9, eni 17, 3 metr, sürəti 12 uzel olan gəminin 12 anbar və bir durulducu tankı var. Çətin hava şəraitində də işləməyə qadir olan gəminin dibinin və gövdəsinin ikiqat olması arzuolunmaz vəziyyətlərdə neftin dənizə tökülməsinin qarşısını almağa imkan verir. "Koroğlu" tankeri 20 günədək sahilə yan almadan üzə bilər.

Xatırladaq ki, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin tanker donanması Xəzər hövzəsində aparıcı mövqeyə malikdir. Yükdaşımalarda xüsusi çəkisini saxlamaq üçün donanmanın yeni gəmilərlə zənginləşməsinə xüsusi fikir verilir. Hazırda 34 tankerdən ibarət donanmanın yaxın gələcəkdə gəmiqayırmanın son nailiyyətləri əsasında inşa olunan yeni gəmilər hesabına daha da gücləndirilməsi planlaşdırılır.

# 2100-cü TANKERİ QƏBUL EDİB



***SOCAR-ın Gürcüstandakı aktivi olan Kulevi neft terminalının limanı indiyədək 2100-cü gəmini qəbul edib və yola salıb.***

Kulevi limanı 2008-ci ilin mayın 16-da fəaliyyətə başlayıb. Ötən doqquz ildə limanın tutumu artırılıb. Həmçinin də qəbuletmə, yükləmə və yolasalma əməliyyatlarının payı artıb, nəticədə isə liman 2100 gəmini qəbul edib və yola salıb. Liman ilboyu fasiləsiz fəaliyyət göstərir.

Qeyd edək ki, Kulevi neft terminalı və limanı 2008-ci ilin mayında istismara verilib. Bir ay sonra limana ilk tanker yan alıb.

# BEYNƏLXALQ XƏZƏR NEFT VƏ QAZ KONFRANSI KEÇİRİLƏCƏK

***İyunun 1-2-də Bakıda Xəzəryanı regionun energetika sektorunda ən böyük tədbir - 24-cü Beynəlxalq Xəzər Neft və Qaz "Caspian Oil&Gas 2017" konfransı keçiriləcək.***

Caspian Oil&Gas Azerbaijan Conference

"Iteca Caspian" şirkətindən bildirilib ki, regionda neft-qaz sənayesinin əsas tədbiri olan konfrans, hər il Xəzəryanı regionun əsas neft-qaz layihələrinin müzakirəsi və enerji təhlükəsizliyinin təmin olunması məqsədi ilə ən yüksək səviyyəli rəhbər işçilərini öz meydançasında bir araya gətirir. "Caspian Oil&Gas" layihəsinə Azərbaycan Respublikası Energetika Nazirliyi və SOCAR tərəfindən dəstək göstərilir.

Konfransda Azərbaycanın dünya enerji bazarında rolu; aparıcı layihələrin cari vəziyyəti və gələcək perspektivləri; əsas bazar iştirakçılarının "onşor" (sahil) və "ofşor" (dəniz) yataqlarının işlənməsi üzrə planları; neft-qaz layihələrinin reallaşdırılmasına dair beynəlxalq əməkdaşlığın genişləndirilməsi; Azərbaycanda neft emalı və neft-kimya sənayelərinin cari vəziyyəti və inkişafı; neft və qazın Xəzər regionundan diversifikasiyalı nəqli Azərbaycan-Xəzər regionunun nəqliyyat-logistika qovşağı; yataqların işlənməsi üzrə səmərə və optimallığın artırılması; köhnə yataqların neft vermə əmsalının artırılması üçün qabaqcıl texnologiyaların istifadəsi; rəqəmsal texnologiyaların insan resursları və səmərə artımında effektiv rolu; alternativ enerji sahəsində innovativ texnologiyalar. Konfransda dünyanın 30-dan çox ölkəsindən 400 nəfərə yaxın nümayəndənin iştirakı gözlənilir.

Bu il daimi iştirakçı və tərəfdaş olan BP şirkəti Azərbaycanda 25 illik fəaliyyətini qeyd edir. Bu yubiley tədbirə, " BP – 25 il ərzində Azərbaycanın uzunmüddətli tərəfdaşı" adlı konfransının bir sessiyası həsr olunacaq.

Tədbirin statusunu həm də konfrans sponsorlarının tərkibi təsdiqləyir, belə ki, konfransın baş sponsoru qismində SOCAR çıxış edir. Konfransın Qızıl Sponsorlar qismində BP, Petronas, Gümüş Sponsorlar - INPEX, McDermott, Statoil, Reflex Marine, Bürünc Sponsorlar – Schlumberger, Caspian Geophysical, Microsoft, Siemens, Dentons, Fluor, Nobel Upstream, TAP, Total, Zenith Energy, Yokogawa Lamor Corporation çıxış edirlər. Konfransın baş media tərəfdaşı qismində isə "Caspian Energy International Media Group" şirkəti çıxış edir.

Beləliklə, konfrans ənənəvi olaraq podratçılara sifarişçilər və həmkarlarla ünsiyyət saxlamaq, texnologiya və xidmətləri iş prosesində nümayiş etdirmək və faydalı işgüzar əlaqələr yaratmaq imkanını, habelə yeni informasiya və texnologiyalar axınını təmin etməklə yanaşı, neft-qaz sahəsində beynəlxalq əməkdaşlıq imkanlarını da genişləndirəcəkdir. Konfransın təşkilatçıları qismində "ITE Group" və onun tərəfdaşı "Iteca Caspian" şirkətləri çıxış edirlər.

# GÖLÜN QURUMASI TƏHLÜKƏSİ ARADAN QALDIRILIR



***İranın Qərbi Azərbaycan vilayətindəki Urmiya gölünün qurumasının qarşısı alınır.***

Bu barədə məlumat verən vilayətin parlamentdəki təmsilçisi Seyyid Hadi Bahadori bildirib ki, hökumətin bu gölün məhv olmaması üçün gördüyü tədbirlər nəticəsində Zarrine və Simine çaylarının gölə axması təmin edilib. Gölün qurumasının qarşısını almaq üçün 10 illik proqram hazırlanıb. Ötən 3 ildə həyata keçirilən işlər artıq faydasını verməkdədir.

Qərbi Azərbaycan vilayətinin Ətraf Mühitin Qorunması İdarəsinin rəisi Pərviz Araste jurnalistlərə bildirib ki, hazırda göldə 2,4 milyard kubmetr su var. Halbuki 4 il əvvəl bu rəqəm 500 milyon kubmetr idi.

Onun sözlərinə görə, gölün səviyyəsi ildə 34 santimetr yüksəlir. Hökumətin hazırladığı proqramın tam icrasından sonra Urmiya gölündə suyun səviyyəsi daha da artacaq.

***Rabil Kətanov***

# ŞƏRƏFLİ ÖMRÜN SAHİBİ



*Ömrə alnın təri, əllərin qabarı ilə rəng qatanda daha mənalı olur. Bu zaman geriyə baxmağa da dəyir. Təəssüf ki, belə nümunələr o qədər də çox deyil. Amma dənizçilik peşəsinə könül verənlər bu mənada həmişə bir pillə öndə dayanırlar. Dalğalar qoynunda cəsarət, hünər və əzmkarlıq nümayiş etdirən təcrübəli dənizçi Siyasət Əliyev də belələrindəndir.*

*Müsahibimiz "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Texniki şöbəsinin rəisi Siyasət Əliyevdir.*

**– Siyasət müəllim, bu günlərdə 70 yaşınızı qeyd etmisiniz. Bu münasibətlə sizi təbrik edirik. Bir balaca geriyə səyahət edə bilərikmi?**

– Bəli. 1947-ci il mayın 1-də Cəlilabadda anadan olmuşam. İllər çox sürətlə keçir. Necə deyərlər, zaman öz atını çapır. Uşaqlıq… yeniyetməlik... gənclik… Bir də baxırsan ki, bunların hamısını geridə qoymusan. Lakin hər yaşın öz yeri, öz dadı-duzu var. Baxır onu necə keçirmisən, həmin vaxtı nə cür sərf etmisən. Şükür ki, geriyə boylanmağa cəsarətim var. Düşünürəm, şərəfli bir ömrün sahibiyəm.

**– Yəqin razılaşarsınız ki, ömrün mənalı olmasında zamanında seçilən peşənin də danılmaz rolu olur?!**

– Əlbəttə. Etiraf edim ki, uşaqlıq arzum müəllimlik olub. Hətta, bunun üçün cəhd də göstərmişəm. Keçmiş Azərbaycan Dövlət Pedaqoji İnstitutuna sənəd versəm də, qəbul ola bilmədim. Sonradan fikrimi dəyişib dənizçi olmağa qərar verdim.

**– Bildiyimə görə, hazırda həm də Azərbaycan Dövlət Dəniz Akademiyasında müəllim kimi çalışırsınız. Bu mənada, məncə uşaqlıq arzunuza çatmısınız.**

– Bəli, indi ADDA-da dərs deyirəm. Düzdür, bir qədər fasilə yaranmışdı. Müəllimlikdən uzaqlaşmışdım. Lakin "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC yarandıqdan sonra – 2014-cü yenidən təklif gəldi. Məmnuniyyətlə razılaşdım. Gəncləri öyrətməkdən, onlarla təcrübəmi bölüşməkdən xüsusi zövq alıram. Tələbələrimə təkcə Akademiyada yox, QSC-də olanda da vaxt ayırmağa çalışıram. Aralarında öyrənməyə həvəsi olanlar çoxdur. Onlardan bir neçəsi bu gün Bakı Gəmiqayırma Zavodunda işləyir.

**– Bəs, özünüz dənizçi olmağa necə qərar verdiniz?**

– 1967-ci ildə "Paris Kommunası" adına Gəmi Təmiri İstehsalat Birliyində iş tapmışdım. Getdikcə bu sahəyə marağım artdı. Bu həvəs məni təhsil almağa sövq edirdi. Qafur Məmmədov adına Bakı Dəniz Yolları Məktəbinin gəmi mexaniki fakültəsinə daxil oldum. Dörd il üç aydan sonra oranı bitirdim və 1973-cü ilin yanvarından Xəzər Dəniz Gəmiçiliyində işləməyə başladım. İstehsalatdan ayrılmadan Odessa Ali Dəniz Mühəndisləri Məktəbini bitirdim. 1995-ci ilin yanvarına kimi müxtəlif gəmilərdə üzdüm. Motorçudan tutmuş baş mexanikə kimi bütün vəzifələrdə çalışdım. Hətta bir-neçə il kapitanın birinci köməkçisi də işlədim.

**– Bu necə olub?**

– 1986-cı ildə məni Dəniz Donanması Nazirliyinin Odessadakı Təkmilləşdirmə İnstitutuna göndərdilər. Bir il kapitanın birinci köməkçisi kursunda oxudum. Geri qayıtdıqdan sonra kapitanın birinci köməkçisi vəzifəsinə təyin olundum. Bir müddət işlədikdən sonra yenidən mexanikliyə qayıtdım. 1995-ci ildə Gəmçilikdə Donanmanın Texniki İstismar Xidməti rəisinin müavini vəzifəsinə irəli çəkildim. 10 aydan sonra isə Gəmiçiliyin baş mühəndisi vəzifəsinə təyin olundum. 1997-ci ildən bu günə kimi isə Texniki şöbənin rəisiyəm.

**– Siyasət müəllim, bir az əvvələ qayıdaq. Dənizçi olmağınızı ailəniz necə qarşıladı?**

– Ailədə, yaxın ətrafımızda dənizçi yox idi. Ona görə, bizim evdə heç kim dənizçi olmaq nədir bilmirdi. Amma etiraf edim ki, hər dəfə dənizçi formasını geyinib kəndə gedəndə hamı mənə xüsusi heyranlıqla baxırdı. Amma bir dəfə atamın üzündə narazılıq görmüşəm. Tələbə vaxtı bizi xaricə üzən gəmilərə altı aylıq istehsalat təcrübəsinə göndərdilər. Atam onda həddən artıq narahatlıq keçirirdi. Getməyimi istəmirdi. Sonradan onu razı sala bildim.

**– Bəs, özünüzdə hansısa qorxu var idi?**

– Yox, qətiyyən. Dəniz fırtınaları və dalğaları ilə gözəldir. Bir də ki, qorxan gözə çöp düşər.

**– Yəqin, dənizdə çətin anlarınız az olmayıb. Gördüyünüz ilk fırtına və ilk həyəcanınız daha maraqlıdır…**

– Deməli, istehsalat təcrübəsi vaxtı İliçovski limanından Vyetnama gedirdik. Yükümüz kənd təsərrüfatı malları idi. Sayqon ətrafında bizi güclü külək tutdu. Gəminin burnu dərinliyə getdikcə, fikirləşirdim ki, batacağıq. Təsəvvür edin, okean, dərinlik də nə az-nə çox – 6-7 min metr. Həmin gün qabaqda başqa bir gəmi batmışdı. Dəhşətli hava idi. Amma sizə deyim ki, ondan sonra rastlaşdığım bütün hava şəraitini adi qəbul edirəm.

**– Bu gün Gəmiçilikdə mühüm bir şöbəyə rəhbərlik edirsiniz. İşin gedişatından razısınız?**

– Texniki şöbə elədir ki, bir növ elmi tərəfə meyllidir. Daha çox layihə institutları və büroları ilə işləyirik. Şöbəmiz tikilən gəmilərə nəzarəti həyata keçirir. Sənədləşməyə, tikildiyi zavoddan gəminin tam hazır vəziyyətdə gətirilməsinə və ilk bir il ərzində ortaya çıxan texniki nasazlıqların istehsalçı zavod tərəfindən aradan qaldırılmasına texniki şöbə cavabdehdir. Həm də gəmiləri texniki sənədlərlə təmin edirik. İşdən və işlərin gedişatından narazı deyiləm. Əlimizdən gələni edirik ki, hansısa problem yaranmasın.

**– Donanmamızın texniki vəziyyəti barədə nə deyə bilərsiniz?**

- Texniki vəziyyət çox yaxşıdır. SSRİ dağılanda güclü gəmiçilik şirkətləri var idi. Hamısı 3-5 ildən sonra məhv oldu. Xəzər Dəniz Gəmiçiliyi isə vəziyyətdən çıxa bildi. Ulu öndər Heydər Əliyevin xüsusi diqqəti ilə Gəmiçilik dirçəldi və çoxlu yeni gəmilər alındı.. Bu missiya bu gün də davam edir. Bunu danmaq nankorluq olar. Hazırda dörd gəmi – 2 bərə, 2 tanker tikilir və gələcəkdə də gəmilərin tikintisi davam etdiriləcək.

**– Siyasət müəllim, 70 illik ömrünüzün 50 ili dənizlə bağlıdır. Bu yarım əsrlik zəhmətin bəhrəsindən danışaq.**

– Bu gün sahib olduğum çox şeyə görə mən Xəzər Dəniz Gəmiçiliyinə borcluyam. Hələ SSRİ vaxtından xüsusi diqqət görən dənizçilərdənəm. 1984-cü ildə Dəniz Donanması nazirinin göstərişi ilə mənə növbədənkənar maşın verdilər. 2008-ci ildə "Dəniz Donanmasının Fəxri işçisi" adına layiq görüldüm. 2014-cü ildə möhtərəm Prezidentimiz İlham Əliyevin Sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif olundum. Deməli, zəhmətim hədər getməyib. Ad günüm ərəfəsində Gəmiçiliyin rəhbəri Rauf Vəliyevin göstərdiyi diqqəti isə qeyd etməyə bilmərəm. Xüsusi təbrik etdi və qol saatı bağışladı. Qiymətini bilmirəm, amma mənim üçün çox dəyərli hədiyyədir. *(gülür)*

*Rövşən Abdurəhmanov*

# İLİN ƏVVƏLİNDƏN AZƏRBAYCAN ƏHALİSİNİN SAYI 0,2 FAİZ ARTIB



***İlin əvvəlindən Azərbaycan əhalisinin sayı 19441 nəfər və ya 0,2 faiz artaraq aprel ayının 1-i vəziyyətinə 9829422 nəfərə çatıb.***

Dövlət Statistika Komitəsindən bildiriblər ki, əhalinin 53,0 faizi şəhər, 47,0 faizi kənd sakinləridir, 49,9 faizini kişilər, 50,1 faizini isə qadınlar təşkil edir. Ölkə üzrə əhalinin sıxlığı bir kvadratkilometrə 114 nəfər təşkil edib və bu göstərici Naxçıvan Muxtar Respublikasında 82, Bakı şəhərində 1051, Lənkəran iqtisadi rayonunda 152, Abşeron iqtisadi rayonunda 151, Gəncə-Qazax iqtisadi rayonunda 103, Aran iqtisadi rayonunda isə 94 nəfər olub.

Cari ilin yanvar-mart ayları ərzində Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 34967, təxminən gündə 389 doğulmuş körpə qeydə alınıb və bu göstərici əhalinin hər 1000 nəfərinə 14,6 təşkil edib. Doğulan körpələrin 626-sı əkiz, 15-i üçəmdir. Doğum səviyyəsi əsasən Lənkəran (17,9), Aran (16,3), Dağlıq Şirvan (16,2), Quba-Xaçmaz (15,2) iqtisadi rayonlarında ölkə səviyyəsindən yüksək olub. Yeni doğulan körpələr arasında qızların xüsusi çəkisi 47,3 faiz təşkil edərək hazırda hər 100 doğulan qıza 111 oğlan düşür (bioloji norma 105-107 təşkil edir). Doğulanların cins nisbətinin pozulması ümumi əhalinin cins strukturunu da dəyişir. Hazırda hər 1000 kişiyə 1006 qadın düşür.

Cari ilin yanvar-mart aylarında ölkədə 15860 ölüm halı qeydə alınıb və əhalinin hər 1000 nəfərinə ölüm səviyyəsi 6,6 təşkil edib. 2017-ci ilin ilk üç ayı ərzində qeydiyyat şöbələri tərəfindən 13305 nikah və 3611 boşanma halları qeydə alınıb və əhalinin hər 1000 nəfərinə nikahların sayı 5,6, boşanmaların sayı isə 1,5 olub.

Bu müddətdə Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən Azərbaycana daimi yaşamaq üçün 635 nəfər gələn və 301 nəfər ölkədən gedən qeydə alınaraq, miqrasiya saldosu müsbət 334 nəfər təşkil edib.



# İKİ SÜNİ ADADA KURORT YARADIR

***Dubay "Burc əl-Ərəb" otelinin yaxınlığında iki süni adada 6,3 milyard dirhəm (1,7 milyard dollar) dəyərində kurort yaratmaq barədə planını açıqlayıb.***

TASS agentliyi xəbər verir ki, yeni yaradılacaq və "Marsa əl-Ərəb" (Ərəb estakadası) adlandırılacaq kurort sayəsində Dubayı hər il ziyarət edən turistlərin sayını 20 milyon nəfərə çatdırmaq planlaşdırılır.

40 min kvadratkilometr sahəni əhatə edəcək "Marsa əl-Ərəb"də 140 bahalı villa ilə yanaşı, müxtəlif attraksionlar, yaxtalar və katerlər üçün özəl liman yerləşəcək. "Marsa əl-Ərəb" layihəsinin icrasına bu ilin iyun ayında başlanılacağı və 2020-ci ilə tamamlanacağı gözlənilir.

Dubay hazırda dünyanın məşhur turizm mərkəzlərindən olsa da, son dövrlər dolların məzənnəsinin möhkəmlənməsi bu ölkəyə turist axınını zəiflədib. Bu da turistlər üçün otel qiymətlərinin, ticarət mərkəzlərinin və "Emirates" aviaşirkətinin tariflərini bahalaşdırıb. Buna baxmayaraq, birinci rübdə Dubayı 4,6 milyon nəfər turist ziyarət edib ki, bu da keçən ilin eyni dövrü ilə müqayisədə 11 faiz çoxdur.

# DƏNİZİN DİBİNDƏN "YANAN BUZ" ÇIXARIBLAR



***Çin neftçiləri dünyada ilk dəfə olaraq "yanan buz" adlandırılan təbii qaz hidratını hasil etməyə nail olublar.***

Çin hökumətinin saytında dərc olunan məlumata görə, təbii qaz hidratı zəngin və effektiv alternativ enerji mənbəyidir. O, gələcəkdə bütün dünyada energetikanin inkişafında strateji rol oynaya bilər.

Həmçinin qeyd olunur ki, 20 il davam edən aramsız tədqiqatlardan, geoloji kəşfiyyatlardan, mövcud texnologiyaların inkişaf etdirilməsindən, xüsusi avadanlıqların hazırlanmasından sonra Çin, nəhayət, bu "tarixi uğura" imza ata bilib.

CCTV telekanalı "yanan buz" nümunələrinin Cənubi-Çin dənizi rayonunda, Honkonqdan 285 kilometr məsafədə, dənizin 1266 metr dərinliyindən çıxarıldığı barədə məlumat verib. Mayın 10-dan bəri çinli neftçilər tərkibi 99,5 faiz metan qazından ibarət olan 120 min kubmetr "yanan buz" hasil ediblər.

# BƏRƏ YANIB

***İndoneziyada bərənin yanması nəticəsində azı 3 nəfər ölüb, 84 nəfərin taleyi barədə isə hələlik məlumat yoxdur.***

RİA Novosti agentliyi bildirir ki, yanğın baş verən bərədə ümumilikdə 178 sərnişin olub. Onlardan 91 nəfəri xilas edilib. Digər 84 sərnişinin taleyi isə qaranlıq qalır. Hadisə gəmi Yava adasından Borneo adasına gedərkən baş verib.

Hazırda itkin düşənlərin axtarışları davam edir.



# LİMANDA PARTLAYIŞDAN 6 NƏFƏR HƏLAK OLUB

***Kolumbiyanın Kartaxen şəhərində limanda baş verən partlayışlarda 6 nəfər ölüb.***

BBC-nin yaydığı məlumata görə, səbəbləri araşdırılan partlayışlarda 20 nəfər yaralanıb. Yerli yanğınsöndürmə xidmətindən bildiriblər ki, 3 partlayış baş verib, onlardan ikisi eyni ərazidə qeydə alınıb. ABŞ-ın gəmiqayırma zavodunda baş verən iki partlayışdan sonra yanğın başlayıb.

# YARIZARAFAT, YARIGERÇƏK

**Allahım, sən məni göynən getməkdən saxla.**

**Bilənlər adətən az danışırlar. Bildikləri üçün!**

**Həyat qısadır. O qədər qısadır ki, sübut etməyə də vaxtım yoxdur.**

**Bu gün də ən böyük işim sabahkı peşmançılığımın qarşısını almaqdır.**

**Məni daha çox, bildiklərim yox, nəyi bilmədiklərimi dəqiq bilməyim qoruyur.**

**Allaha minnətdaram. "Dostlarım"a var verdi və beləcə yalançı dostları məndən vaxtında uzaqlaşdırdı.**

**Həyatın işi köhnə "revizorlar" kimi, yalnız mənim iradəmi yoxlamaqdır?**

**Dünya bundan sonra da körpə gülüşündən gözəl heç nə yarada bilməz.**

**Mən heç vaxt heç kəsə cənnət vəd etmədim. Heç harda olduğunu da bilmirəm.**

**Nə vaxt danışdığını bilmək də, nə danışdığını bilmək qədər vacibdir.**

**Yaddaşınızı möhkəmləndirmək istəyirsinizsə, borc verin.**

**Həqiqəti deyəndə nədənsə mənə ya qəribə şeylər danışan adam kimi, ya da qərib adam kimi baxırlar.**

**Həqiqi dostları olandan problemlər də yan qaçır.**

**Düşmənin böyüklüyü onun qəddarlığının dərəcəsindən asılıdır. Adətən, qəddar olduğu qədər də təhlükəli olur.**

**Gözü tox, bütün zənginlərdən daha varlıdır.**

**Məni yandıran axmaq adamların özlərini ağıllı saymaları yox, axmaqların başqalarını axmaq saymalarıdır.**

**Yaxşı qadın Allahın bəxşişi, yaxşı övlad yaxşı qadının bəxşişidir.**

**Evdən fərqli olaraq, məhkəmələrdə kişilərin hüquqları heç vaxt pozulmur. Onlara da son söz verilir.**

**Var-dövlətin heç bir günahı yoxdur. Pis adamı kasıb olanda da pis gördüm, zəngin olanda da.**

**Başı əyilməyə qoymayan boyun deyil. Yoxsa boynu yoğun o qədər başı əyilmiş var ki!**

**Adam var, az qala savadlı axmaq olması ilə öyünür.**

**Ən güclü insanlar Analardır.**

**Ən əcaib səhnə dünən ağlatdıqları adamın arxasınca bu gün ağlamaqdır.**

**Görünməz kiçik düşmən görünən bütün düşmənlərdən qorxuludur.**

**Sözündən işıq süzülmürsə, söhbətin qaranlıq qalacaq.**

**Yaxşıya bir, pisə dörd tərəfdən arxa dururlar.**

**Gözünlə gör, qulağınla eşit, ağlınla inan.**

**Çoxları həqiqətdən qorxduğu kimi, heç nədən qorxmur.**

**İstəmədiyini eşitmək istəmirsənsə, eşitmək istəməyənlə ağız-ağıza vermə.**

**O qədər yaxşı başlayıb, pis qurtaranlar var ki...**

**Çox bildiyini düşünənlərin işi-peşəsi baş aparmaqdır.**

**Əllərinin çatmadığı yerdə baş işlət.**

**Pis əllə hətta yaxşı qılıncla da heç nə etmək olmaz.**

**Kiminsə üstündən xətt çəkəndə də düz xətt çəkəsən.**

**Doğru danışmaq igidlik deyil, doğru yaşamaq igidlikdir.**

**Qadınlar çox sevəndə, kişilər az seviləndə qısqanırlar.**

**Qadınlar şeytan olmasa da, şeytanlar yəqin ki, qadındır.**

**Qadınlar təkcə sirr saxlaya bilmirlər. Kişilər həm də qadınları.**

**Heç nə ananın övlada məhəbbəti qədər saf deyil.**

**Bütün yollar ölümə aparır. Sadəcə yol var uzun, yol da var qısadır.**

**Yıxılmağından yox, dura bilməyəcəyindən qorx.**

**Biri vardı, mənim hesabımla ondan adam çıxmamalıydı. Ona görə yox ki, düz hesablamışdım. Çıxmadı, çünki heç özü də buna cəhd etmədi.**

**Gözəl qadınlar olan yerdə kişilərin ağlı harda olsa da, çox vaxt başlarında olmur.**

**Planlaşdırmadan hələ sovet hakimiyyəti illərindən xoşum gəlməyib. Xüsusən, kimisə vurmağı planlaşdırmaqdan.**

**Cənnətlə maraqlanmıram. Çünki bu dünyada çox şeyimi qamarlamağı bacaran diribaşlar Cənnət məsələsində də yəqin Allaha "xod" tapa biləcəklər.**

**Yalanın köhnəsi də yarayır?**

**Puldan başqa nə istəsən, tapmaq olur.**

**Belə yaşadığıma zərrəcə peşman deyiləm. Boynum onsuz da nazikdir və boynumda heç kəsin minnəti yoxdur.**

**Fikir verin, qırmızı rəngi xoşlamadıqlarını deyənlər dərhal da ağıllı görkəm almağa çalışırlar.**

**Qərarsızlar uğurun ləzzətini bilməzlər.**

**Düşmən, qorxduğunu düşməndən gizlədə bilməyənin qabağından heç vaxt qaçmaz.**

**Pislik sonu görünməyən quyudur, ondan həmişə uzaq gəz. Çünki içinə düşsən, çıxa bilməzsən.**

**Yaxşılığın kiçiyi də var, böyüyü də. Pisliyin kiçiyi olmur.**

**Dilənçi kimi yaşamaq istəməyən padşah kimi xərcləməməlidir.**

**Bir vaxtlar paxıllıq edənlərə əhəmiyyət vermədim. Düşündüm ki, ötüb keçər. İndi nifrətə keçiblər.**

**Bəzi "kişilər"ə elə gəlir ki, Allah onları qadınları bədbəxt etmək üçün yaradıb.**

**Fantaziyası olmayan adamların yalanı o saat bilinir.**

**Yalan danışmaq olmaz! Olmaz, olmaz, olmaz!**

**Mən həqiqəti sevdiyim üçün yox, yalana nifrət etdiyim üçün yalan danışmıram.**

**Dünya inkişaf etdikcə, yalanlar da böyüyür.**

*Rasif TAHİROV*

# TƏHLÜKƏ HİSS EDƏNDƏ...



***Avstraliyalı və almaniyalı alimlərin birgə araşdırmaları nəticəsində məlum olub ki, duzlu suda yaşayan timsahlar təhlükə hiss etdikləri zaman gözlərindən biri açıq şəkildə yatırlar. Bununla bağlı məlumat "Eksperimental Biologiya" jurnalında dərc edilib.***

Avstraliyanın La Trobe Universitetində quraşdırılmış üç böyük hovuzda 24 saat ərzində timsahların davranışları lentə alınıb. Bir il davam edən eksperiment zamanı məlum olub ki, onların beyinlərinin bir hissəsi yatdıqları zaman belə oyaq qalır.

# SUSUZ 5 İL YAŞAYAN BALIQ



***Afrikada yemək və su olmadan 5 il yaşaya bilən balıq tapılıb.***

"Terra" teleradio kampaniyasının verdiyi xəbərə görə, balıq əlverişsiz vəziyyətə düşəndə sadəcə yuxuya gedir və ətrafında şirin su olmayana qədər oyanmır.

Müəyyən edilib ki, balıq 5 ilədək fəaliyyətsiz qala bilir. Canlının heyrətamiz bacarığı elm üçün böyük maraq kəsb edir. Alimlər kritik vəziyyətlərdə insanın həyat fəaliyyətinin dayandırılmasının mümkünlüyünü öyrənmək məqsədilə balıq üzərində araşdırmaya başlayıblar.



# 31 MİLYONDAN ÇOX İNSAN QAÇQIN VƏZİYYƏTİNƏ DÜŞÜB

***2016-cı ildə dünyanın müxtəlif ölkələrində hərbi əməliyyatlarla əlaqədar 31 milyondan çox insan öz evlərini tərk etməyə məcbur olub.***

Norveç KİV-ləri bu xəbəri Norveç Qaçqınlar Şurasının (NRC) yeni məruzəsinə istinadla yayıblar.

Şuranın məlumatına əsasən, qaçqınların sayına görə birinci yeri Konqo Demokratik Respublikası tutur: bu ölkədən 922 mindən çox insan qaçıb. Suriyanı tərk edənlərin sayı təqribən 824 min nəfər olub. Qaçqınların sayına görə üçüncü yeri İraq tutur. Mütəxəssislərin hesablamalarına görə keçən il bu ölkəni 659 min nəfər tərk edib. Ümumiyyətlə, hərbi münaqişələr ucbatından öz ölkəsindən çıxıb getmiş 6,9 milyon nəfərdən 2,6 milyonu Böyük Səhradan cənubda yerləşən Afrika ölkələrinin payına düşür.

Məruzədə göstərilir ki, qaçqınların sayına görə sonrakı yerləri Əfqanıstan, Nigeriya və Yəmən tutur.

Yeni hesabatda o da qeyd edilir ki, keçən il təbii fəlakətlərlə əlaqədar öz evlərini tərk etmiş insanların sayı hərbi münaqişələrlə əlaqədar yaranmış qaçqınların sayından 3 dəfə çox olub. Mütəxəssislər qeyd edirlər ki, keçən il təbii fəlakətlərə məruz qalmış 24 milyon nəfərin çox hissəsi öz evlərini tərk edib. Məruzə müəllifləri vurğulayırlar ki, təbii fəlakətlərlə əlaqədar öz evlərini itirmiş insanların sayının daha da artması ehtimalı yüksəkdir. Bu, iqlim dəyişmələrinin gələcəkdə də davam etməsi ehtimalı ilə bağlıdır.

***Rauf Əliyev***

# ƏN NƏHƏNG KONTEYNERDAŞIYAN GƏMİLƏR

***Araşdırmaların nəticələrinə əsasən ekspertlər dünyada ən nəhəng 6 konteynerdaşıyan gəminin siyahısını hazırlayıblar.***

Siyahıda birinci yerdə dünyada ilk 21 minlik konteynerdaşıyan gəmi "OOCL Honq Kong" dur. Onun uzunluğu 399.9 metr, eni 58.8 metrdir. Tikintisi hələ yekunlaşmayan gəmi Asiya-Avropa nəqliyyat marşrutunda istismar ediləcək. Gəminin bu il istifadəyə verilməsi nəzərdə tutulub.

Ümumi tutumu 20 min 568 konteyner olan "Madrid Maersk" gəmisi siyahının ikinci pilləsində qərarlaşıb. Üzən vasitənin uzunluğu 399 metr, eni isə 58.6 metrdir.

Həcm və böyüklüyünə görə üçüncü yerdə "MOL Triumph" gəmisi gəlir. Uzunluğu 400 metr, eni 58.8 metr olan nəhəng artıq "The Aliance" servisi nəzdində ilk səfərini həyata keçirib. Mayın 16-da Hamburq limanına daxil olub.

Dördüncü yerdə qərarlaşan "Barzan" gəmisinin maksimal tutumu 19.870 konteynerdir. Uzunluğu 400 metr, eni isə 58.7 metr olan gəmi Asiya-Avropa marşrutunda istismar edilir.

"MSC Oscar" gəmisi beşinci yerə layiq görülüb. Gəminin maksimal tutumu 19.224 konteynerdir. Üzən vasitənin uzunluğu 395.4 metr, eni 59 metrdir. Bu, təxminən dörd futbol meydançası deməkdir.

"CSCL Globe" gəmisi altıncı yerdədir. Maksimal tutumu 19 min konteyner olan gəminin uzunluğu 400 metr, eni 58.6 metrdir. Bu nəhəng də Asiya-Avropa Beynəlxalq Nəqliyyat Marşrutunda istismar edilir.
























# "DƏNİZÇİ GÜNÜ" MÜNASİBƏTİ İLƏ FOTO MÜSABİQƏ

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin rəsmi mətbuat orqanı olan "Dəniz" qəzeti 25 iyun – "Dənizçi günü" münasibəti ilə əməkdaşlar arasında foto müsabiqə elan edir.***




**ŞƏRTLƏR AŞAĞIDAKI KİMİDİR:**

1. Müsabiqədə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin əməkdaşları ilə yanaşı, gələcəyin dənizçiləri - Azərbaycan Dövlət Dəniz Akademiyası və onun nəzdində olan Dənizçilik kollecinin tələbələri də iştirak edə bilərlər.




2. Göndərilən foto dənizçi peşəsi və Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi ilə əlaqəli olmalıdır.

3. Bir iştirakçı yalnız bir şəkil göndərə bilər.

4. Kompyuter effektləri və foto montajdan istifadə edilə bilməz. Bununla belə, şəkillər mümkün qədər keyfiyyətli olmalıdır.

5. Fotolar son 6 ay ərzində çəkilməlidir.

6. İştirakçı fotoların müsabiqədə istifadəsinin üçüncü şəxslərin hüquqlarını pozmadığına zəmanət verir və insan təsvirlərindən qeyri-qanuni istifadəyə görə məsuliyyət daşıyır.

©opyright

7. Fotolar çəkilərkən əmin olmaq lazımdır ki, kadrda Cəmiyyətin işçisinin həyatı və əmlakı təhlükə, risk altında deyil. SƏTƏMM normalarına riayət olunması mütləqdir.

**Qeyd:** *Yalnız yuxarıda qeyd olunan qaydalara uyğun çəkilən fotoların müəllifləri iştirakçı statusu qazanacaqlar. Müsabiqəyə qəbul olunan fotolar yaradılmış xüsusi komissiya tərəfindən seçiləcək.*

**Müsabiqəyə çıxarılan fotoşəkillərin qiymətləndirilməsi aşağıdakı qaydada aparılacaq:**

1. Müsabiqəyə qəbul olunmuş şəkillər "seanews.az" (https://www.facebook.com/seanews.az/) facebook səhifəsində paylaşılacaq.

2. Qalib "like"-ların sayı və xüsusi komissiyanın qərarı ilə müəyyənləşdiriləcək.

3. "Like"-ların təhlili zamanı saxta hesablardan verilən səslər xaric ediləcək.

4. Ən yaxşı beş fotonun müəllifi hədiyyə ilə mükafatlandırılacaq.

**Fotolar mayın 25-dən iyunun 20-dək qəbul olunacaq və seanews.az@gmail.com elektron ünvanına göndərilməlidir.**

**Qeyd olunan tarixdən gec göndərilən fotoşəkillər qəbul edilməyəcək. Qaliblərin adı 23 iyunda açıqlanacaq.**

*Şəkil yollayarkən ad və soyad, vəzifə, əlaqə nömrəsini yazmaq mütləqdir.*

BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1005, Bakı şəhəri,
M. Ə. Rəsulzadə küçəsi, 5
TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76;
30-67 (daxili)

Qəzetin təsisçisi:
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 1513